# Kompensasiyaların necə qaytarılacağı məlum oldu



**Problemli kreditlər üzrə kompensasiyaların ödənilməsinə aprel ayının sonunda başlanılacaq, bununla bağlı hər bir şəxs bankdan SMS alacaq. Əgər kompensasiyaların məbləği 500 manatadək olacaqsa, bu halda vətəndaşlar onlara çatacaq vəsaiti pul köçürmə sistemləri vasitəsilə nağd şəkildə də ala biləcəklər.**

Məbləğ 500 manatdan çox olarsa, kompensasiyalar yalnız plastik kartlar vasitəsilə ödəniləcək ki, burada şəffaflıq naminə vətəndaş məmur təması olmasın. Plastik kartların hansı bankda açılması və hesab nömrəsi belə portala daxil olan vətəndaşın şəxsi vərəqəsində öz əksini tapacaq.

Bildirək ki, ölkədə fəaliyyət göstərən hər üç mobil operatordan SMS almaq mümkündür.

Qeyd edək ki, problemli kreditlərlə bağlı Azərbaycan prezidentinin imzaladığı müvafiq fərmanla restruktruzasiyaya 2012-ci il yanvarın 1-dən 2019-ci ilin martın 1-nədək olan gecikmiş kreditlər düşür.

Kompensasiyalarla bağlı güzəştlər isə 2015-ci il devalvasiyasına məruz qalan kreditlərə şamil edilir, yəni əsas odur ki, 2015-ci ildə devalvasiyalar nəticəsində həmin borcgötürənlərə ziyan dəyib və onlar daha yüksək məzənnə ilə borc qaytarmağa məcbur



Musa Quliyev

## Maaşlar yenə artırılır?

**Azərbaycanda əməkhaqlarının yenidən artırılması həyata keçiriləcək. Bunu yap.org.az-a açıqlamasında deputat Musa Quliyev deyib. O bildirib ki, minimum, orta aylıq əmək haqları, pensiyalar artacaq, yeni iş yerləri açılacaq, bütün bunlar əhalinin sosial rifah halının güclənməsinə, ölkəmizi sosial rifah dövlətinə gətirib çıxaracaq.**

"2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. 2019-cu ilin ilk iki ayında sosial sahədə atılan addımlar heç də təsadüfi, hər hansı impulsiv qərar deyil. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Son imzalanan sərəncamlar da bir və ya iki ayın işi deyil, onların üzərində aylardır ki, iş gedib.

Prezident də bəyan edib ki, 2019-cu il əhalinin sosial müdafiəsi sahəsində xüsusi bir il olacaq. Yəni 2017-ci il iqtisadiyyatımızın sabitləşməsi, 2018-ci il iqtisadi inkişaf, 2019-cu il isə sosial inkişaf və rifah ili kimi xalqımızın tarixinə düşəcək".

## Türkiyədə dağda köməksiz qalmış 29 yaşlı azərbaycanlı tələbə xilas edildi

**Türkiyənin Muğla əyalətinin Marmaris rayonunda dağda köməksiz qalan 29 yaşlı Azərbaycan vətəndaşı, tələbə Amir Oruci xilas edilib. Yerli "Mynet" nəşrinin verdiyi xəbərə görə, onunla birlikdə daha üç tələbə - Ahmet Öztokmak (21 yaş), Mehmet Çavuşoğlu (23) və Mehmet Han Şafak (19) da dağda azıblar.**

Məlumata görə, Türkiyənin Fövqəladə Hallar Nazirliyi, polisin şəxsi heyəti 8 saatdan sonra 4 gənci dağdan endirib.

Onların səhhətinin yaxşı olduğu bildirilib.

## Rusiyadakı erməni oliqarx işğal zonasına maliyyə yardımı etdi

**Erməni əsilli rusiyalı milyarder Samvel Karapetyan Azərbaycanın işğal edilmiş ərazisi olan Qarabağa yenidən yardım göndərib. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Karapetyan bu dəfə Qarabağdakı çoxuşaqlı ailələrə maliyyə yardımı edib. Məlumata görə, qondarma rejimdəki ailələrə yardımı separatçıların lideri Bako Saakyan təqdim edib. O, Karapetyana göstərdiyi yardımlara görə təşəkkür edib.**

Qeyd edək ki, Karapetyan Rusiyadakı erməni diasporunun ən zəngin üzvü sayılır.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir



"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


## Ziya Məmmədovun qardaşı oğlunun yerinə təyinat

**Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinə yeni rəis müavini təyin edilib. ONA-nın məlumatına görə, bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb. Əmrə əsasən, polis polkovniki Rəhim Novruzov Baş İdarənin rəis müavini təyin edilib.**

Xatırladaq ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəis müavini olmuş, polis polkovniki Fuad Məmmədli bu ilin fevralında tutduğu vəzifədən azad edilib.

F. Məmmədli sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğludur.

## 53 nəfər direktor vəzifəsinə təyin edildi

**Dövlət ümumi təhsil müəssisələrində vakant olan direktor vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin növbəti yerləşdirmə nəticələri açıqlanıb. Təhsil Nazirliyindən verilən məlumata görə, nəticələrə əsasən, 53 nəfər namizəd müvafiq məktəblərə direktor vəzifəsinə təyin edilib.**

Yeni direktorlar aprelin 1-dən öz vəzifələrinin icrasına başlayacaqlar. Qeyd edək ki, "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul və çalışmanın yaş həddinə çatmış direktorlarla əmək münasibətlərinin tənzimlənməsi Qaydaları"na uyğun olaraq 2018-ci ilin noyabr ayında elan edilmiş müsabiqədə 228 nəfər uğur qazanıb. İlkin yerləşdirmə nəticəsində 104 nəfər namizəd fevralın 25-dən, 28 namizəd isə martın 4-dən müvafiq məktəblərə direktor vəzifəsinə təyin edilib. Sözügedən müsabiqənin nəticəsinə əsasən, ümumilikdə 185 nəfər ümumi təhsil müəssisəsinin direktoru vəzifəsinə təyin edilib.

## Prokurorluq Sumqayıtda zavodda partlayışla bağlı cinayət işi açıb

**Sumqayıt şəhər Prokurorluğu martın 22-də "STP-3 Metalləritmə" zavodunda insan tələfatına gətirib çıxaran partlayışla bağlı cinayət işi açıb. Partlayış əritmə sexində ərimiş metalın soyuducu radiatora düşməsindən sonra baş verib. Hadisə nəticəsində fəhlələr Mürşüd Məmmədov, Vüqar Cəlilov, Ceyhun Qaraşov və sex rəisi Minyaz Seyidəliyev müxtəlif dərəcəli yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.**

Minyaz Seyidəliyev müalicə olunduğu xəstəxanada aldığı xəsarətlərdən martın 27-də vəfat edib.

Bir həftə sonra Prokurorluq CM-in 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi qaldırıb. Hadisənin səbəblərinin və təqsirkarlarının müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir, deyə məlumatda bildirilir.



## «Bakcell» Novruz bayramını Azərbaycan xalqı ilə birgə keçirib

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» Novruz bayramı münasibətilə ümumxalq şənliyinə qatılıb. Şirkət "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil edilmiş "Bahar Qalası" festivalının sponsoru olub.**

**Mart ayının 20-dən 26-na kimi davam etmiş ənənəvi "Bahar Qalası" festivalında milli-təbiqi sənət məhsulları, rəsm əsərləri, yerli sənətkarların hazırladıqları əl işləri, suvenirlərin satış-sərgisi nümayiş olunub. Festival çərçivəsində təşkil edilmiş konsert proqramı, tamaşaçılara həm milli, həm də digər xalqların nümayəndələrinin ifasında rəqslər və nəğmələr təqdim edib, Azərbaycan estradasının ulduzlarının ifasında sevilən mahnılar səsləndirilib. Həmçinin, martın 23-də "Bahar Qalası" festivalının xüsusi qonağı olan Türkiyənin gənc estrada ulduzu Aleyna Tilki konsert proqramı ilə çıxış edib.**

**Azərbaycan xalqına hər zaman yaxın olan «Bakcell» şirkəti ölkənin milli dəyərləri və mədəni sərvətlərinə bağlılığını bir daha nümayiş etdirərək "Bahar Qalası" festivalının sponsoru olub. Festival çərçivəsində İçərişəhərdə quraşdırılmış «Bakcell» stendinə gələn qonaqları və xüsusi olaraq uşaqları müxtəlif sürprizlər, əyləncələr və maraqlı hədiyyələr gözləyirdi. Həmçinin burada, qonaqlar "«Bakcell»"in məhsul və xidmətləri barədə məlumat əldə etmək və pulsuz mobil nömrə almaq imkanına malik olublar.**

**Qeyd edək ki, İçərişəhərdə keçirilmiş festival və ümumxalq Novruz şənliyində minlərlə vətəndaş və ölkəmizin qonaqları iştirak edib.**

## Milli Məclis Mərkəzi Bankın səlahiyyətini Palataya vermədi

**Bank faizlərinin yuxarı həddinin Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən müəyyənləşdirilməsini nəzərdə tutan "Banklar haqqında" qanuna təklif edilən dəyişiklik Milli Məclisin sabahkı plenar iclasının gündəliyindən çıxarılıb.**

Bu barədə "Qafqazinfo"ya parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Tahir Mirkişili məlumat verib.

Deputat layihənin gündəlikdən çıxarılmasının səbəbini bilməsə də, banker.az saytının yazdığına görə, buna səbəb qanun layihəsində Maliyyə Bazarlarına Nəzarət Palatasına verilməsini nəzərdə tutulan səlahiyyətin mübahisəli olmasıdır.

Belə ki, dəyişikliklə bank faizlərinin yuxarı həddinin məhz Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulurdu ki, bu da mövcud prosedurlara və qaydalara uyğun gəlmir.

Bu məsələnin adıçəkilən Palatadan daha çox, Mərkəzi Bankın səlahiyyətində olduğu nəzərə alınaraq, dəyişiklik məqsədəuyğun hesab edilməyib və qanun layihəsi son anda gündəlikdən geri çəkilib.

## Bu gün Bakıda güclü külək gözlənilir

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeoroloji Proqnozlar Bürosundan verilən məlumata görə, martın 29-da Bakıda və Abşeron yarımadasında havanın buludlu olacağı, arabir yağış yağacağı gözlənilir.**

Səhər bəzi yerlərdə zəif duman olacaq. Arabir güclənən şimal küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 4-6, gündüz 8-11, Bakıda gecə 4-6, gündüz 8-10 dərəcə isti təşkil edəcək. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında martın 29-da bəzi yerlərdə arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 4-7, gündüz 8-12 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 3-6 dərəcə isti təşkil edəcək.

Nazirlik xəbərdarlıq edir ki, martın 29-30-da Bakıda və Abşeron yarımadasında arabir güclənən şimal küləyi əsəcək, fasilələrlə yağış yağacaq.

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019

# Prezident "Dıqlas" yanğınını söndürdü: sahibkarlara dövlət yardımı, fürsətçilərə ağır zərbə

## Ölkə başçısı ticarət mərkəzinin yanması ilə bağlı müşavirə keçirdi, malı yanan sahibkarlara dövlət yardımının verilməsini tapşırdı; durumdan yararlanmaq istəyib, mitinq təyin edənlər gülünc vəziyyətə düşdü



**"Dıqlas" Ticarət Mərkəzinin yanması nəticəsində zərər görən vətəndaşlarla bağlı gözlənilən qərar verildi. Belə ki, prezident İlham Əliyev zərərçəkənlərə dövlət tərəfindən yardım edilməsini**

Əvvəlcə qeyd edək ki, martın 28-də səhər saatlarında "Dıqlas" Ticarət Mərkəzində baş verən yanğın zamanı zərərçəkən sahibkarlar yenidən Nizami Rayon İcra Hakimiyyətinin qarşısına toplanmışdılar. İcra hakimiyyətində ticarət mərkəzinin rəhbər şəxslərinin, rayon icra hakimiyyətinin başçısı Arif Qasımovun və Prezident Administrasiyasının nümayəndələrinin də iştirakı ilə zərərçəkən sahibkarlarla görüş keçirilib. Sahibkarlara bildirilib ki, onlara dəymiş zərərə görə dövlət tərəfindən yardım veriləcək.

**Nizami rayon icra başçısının müavini Qərib Məmmədov "Yeni Müsavat"a açıqlamasında sahibkarların narazılığına son qoyulduğunu bildirib:** "Müşavirəyə Prezident Administrasiyasından şöbə müdirinin müavini Hüseyn Veysəlov, İqtisadiyyat Nazirliyindən, Sahibkarlar Konfederasiyasından, Vergilər Nazirliyindən, Fövqəladə Hallar Nazirliyindən nümayəndələr gəlmişdilər. Sahibkarların iştirakı ilə iclas keçirildi. Hüseyn Veysəlov elan etdi ki, prezidentin tapşırığı ilə gəlib, tapşırıq verilib ki, sahibkarlara dəyən ziyan dövlət tərəfindən ödənilsin. Bunun üçün də komissiya təşkil olunacaq, tam araşdırılacaq, araşdırma nəticəsində kimə nə qədər ziyan dəydiyi təyin olunacaq və onun əsasında yardımlar ödəniləcək. Bu açıqlamadan sonra ticarətçilər hamısı verilən qərarı alqışlarla qarşıladı, minnətdarlıqlarını, razılıqlarını bildirdilər. Artıq narazılıq üçün heç bir əsas qalmayıb. Onların tələbi yardım almaq idi. Dövlət rəhbəri tərəfindən tapşırılıb ki, camaata dəyən ziyan dövlət tərəfindən ödənilsin və onların bundan sonra da öz fəaliyyətlərini davam etdirmək imkanı olsun".

**Yanmış binanın aqibətinə gəlincə, Qərib Məmmədov bildirib ki, bununla bağlı Fövqəladə Hallar Nazirliyi hazırda komissiya yaradıb, iş aparılır və onların rəyi əsasında qərar veriləcək:** "Bu özəl bir müəssisədir, FHN-in rəyinə uyğun olaraq ya təmir olunacaq, ya da sökülüb yerində yeni bina tikiləcək. Bunu komissiyanın apardığı araşdırma nəticəsində biləcəyik".

**Ticarət müəssisəsinin rəhbərlərinin məsuliyyət məsələsinə münasibət bildirən Q.Məmmədov deyib ki, bu qərar komissiyanın və Fövqəladə Hallar Nazirliyinin verdiyi rəy əsasında formalaşacaq.**

**"Rayon ərazisində müvafiq təhlükəsizlik tədbirlərinə, standartlara əməl etməyən digər ticarət müəssisələri ilə bağlı hansı iş aparılacaq" sualına cavab verən icra başçısının müavini bu tədbirlərin gündəlik olaraq davam etdiyini vurğulayıb:** "Bu işlər hər zaman aparılır, nəzarətdə saxlanılır. Problem odur ki, bizdə bu sahəyə nəzarət edən adamların sayı bu ticarət mərkəzində və ətrafında xırda ticarətlə məşğul olanların sayından çox azdır. Burada insanlar özü də diqqətli olmalıdırlar. Bir az hava soyuq olan kimi, satıcının biri tez alışan malların düzüldüyü piştaxtanın altına özü üçün qızdırıcı plitə qoyur. Digəri özü üçün elektrik xətti çəkir, elektrik avadanlığı qoyur. Bu xaos nəticəsində problemlər yaranır, xətlərin öz gücündən artıq yüklənməsinə səbəb olur. İnsanların özü də diqqətli olmalı, təhlükəsizliyi qorumalıdır. Dövlət qurumları tərəfindən hər zaman müvafiq tapşırıq verilir, nəzarət işləri aparılır. Heç bir qurum istəməz ki, onun nəzarətində olan ərazidə belə bədbəxt hadisələr baş versin. İnsanların səhlənkarlığı olur, bunu hamımız bilirik. Belə hadisələr insanların təhlükəsizlik məsələlərinə laqeyd yanaşmasının nəticəsidir. Belə insanların maarifləndirilməsinə də ehtiyac var".



Günün ikinci yarısında isə "Dıqlas" Ticarət Mərkəzində baş vermiş yanğınla əlaqədar prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilməsi xəbəri yayıldı. Prezident İlham Əliyev müşavirədə ticarət mərkəzində baş vermiş yanğın zamanı xoşbəxtlikdən insan itkisinin olmadığını, lakin orada çalışan insanlara maddi ziyan dəydiyini bildirib.

Hazırda hadisənin səbəblərinin araşdırıldığını və sahibkarların problemlərinin həlli ilə bağlı tədbirlərin görüldüyünü deyən dövlət başçısı qeyd edib ki, onlar iş yerlərini, əmlaklarını itirib, onlara ciddi maddi ziyan dəyib.

Prezident İlham Əliyev iki gün ərzində Nizami Rayon İcra Hakimiyyətində sahibkarlarla görüş keçirildiyini, onlara dövlət tərəfindən dəstək göstəriləcəyinin deyildiyini bildirib.

Dövlət başçısı vurğulayıb ki, İqtisadiyyat Nazirliyi sahibkarlarla bir-bir görüşməli və onların problemlərini dinləməlidir. Maliyyə Nazirliyi operativ qaydada ilkin olaraq maliyyə vəsaiti ayırmalı və həmin vəsait sahibkarlara verilməlidir. Digər müvafiq qurumlar da yanmış malların qiymətini sahibkarlarla birlikdə aydınlaşdırmalıdır.

"Azərbaycan güclü sosial siyasət aparır. Bu ilin əvvəlində ciddi sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunub və bu təşəbbüsün dünyada bənzəri yoxdur", - deyən prezident İlham Əliyev yanğın hadisəsinin tam araşdırılıb təkliflərin verilməsi üçün komissiyanın yaradılacağını, bununla yanaşı, operativ olaraq sahibkarlara maddi dəstək göstəriləcəyini vurğuladı.

Sonra fövqəladə hallar naziri Kəmaləddin Heydərov, baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, iqtisadiyyat naziri Şahin Mustafayev, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov məruzə ilə çıxış ediblər.

Prezident İlham Əliyev yanğının səbəblərinin araşdırılması ilə bağlı bir daha tapşırıqlarını verib. Bildirib ki, bütün ticarət mərkəzlərində ciddi təftiş aparılmalı, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Azərbaycan prezidenti bir daha vurğulayıb ki, dövlət sahibkarların yanındadır və yanğından zərərçəkmiş sahibkarlara operativ qaydada maliyyə dəstəyi göstəriləcək.

***

Bu proseslərdən sonra "Yeni Müsavat"ın reportyor qrupu olaraq "Dıqlas" Ticarət Mərkəzinin qarşısına yollanaraq zərərçəkənlərlə həmsöhbət olduq. Onlar ölkə prezidentinin qərarından razı qaldıqlarını, dərin minnətdarlıq etdiklərini bildirdilər. Söylədilər ki, ölkə prezidenti onların arzuladıqları addımı atıb. Zərərçəkənlər bildirdilər ki, onlara və dövlətə zərər vuranlar, yanğında günahı olanlar da cəzalandırılmalıdır.

**Söhbət etdiyimiz zərərçəkənlər bildirdilər ki, ticarət mərkəzində normadan artıq mağaza tikilib:**

""Dıqlas"da həmişə elektrik xətlərində problem olub. Bunun da səbəbi odur ki, normadan artıq mağaza açmışdılar. Pilləkənin üstünü, koridoru, sanitar qovşağının qarşısını belə kəsib mağaza etmişdilər. Ona görə də elektrik xətləri dözmürdü. Ticarətçilər özləri işıqları söndürməklə yanaşı, hər gün işdən sonra ticarət mərkəzinin işıqları ümumi xətdən ayrılırdı. Ancaq xətlər çox yüklənmişdi".

**Ərazidə olduğumuz zaman ticarət mərkəzinin idarəçilərindən olan Rasim Məmmədov da sakinlərin arasında idi. O, "Yeni Müsavat"a bildirdi ki, günahkar kimdirsə məlum olacaq: "Hazırda işlərimizi görək. Elə mallar var ki, onlar yanmayıb. Baxıb onları seçmək lazımdır. Bu tica**rət mərkəzi təmir olunacaq, insanların hamısı işlərinin başına qayıdacaqlar. Biz bu adamlardan qazanmışıq. Eyni zamanda işlərimizin hamısını qanuni şəkildə görmüşük. Bəzən deyirlər ki, filan qədər işıqpulu ödəmişik. Bəs biz də həmin pulları dövlətə ödəməsəydik, elektrik verilərdi? İşlərin hamısı qanuni şəkildə görülüb. İcarə odur ki, biz ticarətçilərə xidmət göstəririk. Bir adam desin ki, biz Rasim müəllimdən narazıyıq. "Dıqlas" haqqında mənfi fikir söyləyənlərin heç bura aidiyyəti yoxdur. Təxribat törədənlərin ticarətlə əlaqəsi yoxdur. Müəyyən qüvvələr var ki, buradakı vəziyyətdən istifadə edib, qarışıqlıq yaratmaq istəyirlər. Buna imkan vermək olmaz. Biz buradayıq və camaatın içərisindəyik. Sadəcə olaraq, səbirli olun. Hazırda binanın içərisinə daxil olmaq təhlükəlidir. Ona görə də indi içəri keçmək olmaz. Dünən burada təxribat oldu. Mənim telefonumu da qırdılar. Çalışaq hər şeyi sakit qaydada, səbirlə edək".

***

Bir məqamı vurğulayaq ki, məlum olayla bağlı həm ölkə daxilində, həm də ölkə xaricində bəzi qüvvələr fəallaşmışdılar. Onlar yüzlərlə ticarətçinin narazılığını başqa istiqamətlərə yönəldib, ölkədə qeyri-sabitlik yaratmaq arzusunda idilər. Buna misal kimi, Milli Şuranın martın 27-də günün ikinci hissəsində tələm-tələsik mitinq qərarı verməsini göstərmək olar. Aprelin ayının 6-na mitinq təyin edən MŞ rəhbərliyi yəqin bununla "Dıqlas"da malları yanaraq külli miqdarda zərərə düşmüş vətəndaşları öz avantürist siyasətlərinə alət etməyi planlaşdırırdılar. Lakin prezident son addımı ilə həm xalqın yanında dayandığını bir daha göstərdi, həm də vətəndaşın ağır günündən sui-istifadə etmək istəyən qüvvələrə layiqli cavab vermiş oldu.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019

**"Dıqlas" ticarət mərkəzinin yanması ölkənin əsas gündəm mövzusudu. Orda çalışan ticarətçilər üzləşdikləri ağır durumla bağlı müxtəlif ünvanlara üz tutdular. Sahibkarların tək istəyi dövlətin məsələyə müdaxiləsi, ziyanın qarşılanması idi. İlk gündən nazirlər və ayrı-ayrı məmurlar tərəfindən sahibkarlara təmkinli olmaları, dövlətin onları taleyin ümidinə buraxmayacağı haqda tövsiyə, həmçinin vədlər verilirdi.**

# Xainlərin "Dıqlas"da yanan planları - prezident oyunu necə pozdu...

Ortada gərginlik vardı, açıq görünürdü. Bu da təbii idi. Malını, gündəlik dolanışığını itirmiş, küllü miqdarda zərərə düşmüş adamlardan təmkinli davranış gözləmək də doğru sayılmaz. Buna baxmayaraq, vətəndaş ümidli idi, zərərçəkmiş ticarətçilər hər addımda deyirdilər ki, ölkə prezidentinin onlara sahib çıxacağına, dövlətin dəstək verəcəyinə əmindilər.

Son aylar prezident İlham Əliyevin addımları xalq tərəfindən rəğbətlə qarşılanır. Çünki birmənalı şəkildə son fərman və sərəncamlar əhalinin xeyirinədi. Şəhid ailələri ilə görüş, onlara ödəniləcək məbləğin yoluna qoyulması, problemli kreditlərlə bağlı atılan addımlar on minlərlə insanı ağır sosial yükdən xilas etdi. Həmçinin son əfv sərəncamı da hakimiyyətin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə reytinqini xeyli yüksəldib.

Son 3 aylıq dövrdə hökumətlə vətəndaş arasında münasibətlər xeyli istiləşib. İnsanlar görür ki, onların ağır durumunda dövlət işə qarışıb, problemi yoluna qoyur. Klassik "Dövlət vətəndaş üçündür, vətəndaş dövlət üçün deyil" düsturu Azərbaycanda daha ciddi işləməyə başlayıb.

Etiraf edək ki, əvvəlki illərdə bu cür kütləvi zərərçəkənlər olanda o qədər də həssaslıq göstərilməyib. İndiyədək dəfələrlə ticarət mərkəzləri yanıb, sahibkarlar bəlkə bundan artıq ziyana düşüblər. Lakin umulan dəstək ya verilməyib, ya da çox cüzi olub. Son aylar isə hakimiyyət tamam fərqli kurs götürüb. Vətəndaşın ən ağır, ən aktual problemləri sürətlə həllini tapır.

Prezident İlham Əliyev martın 28-də müşavirə keçirib, malı yanan sahibkarlara dövlət yardımı verilməsi haqda göstəriş verdi. Və bununla da "Dıqlas" yanğınını birdəfəlik söndürdü. İnsanlar rahat nəfəs aldılar, arxayınlaşdılar və gərginlik aradan götürüldü. Ən əsası, həm ziyana düşmüş ticarətçilərin, həm də kənar müşahidəçilərin, bütövlükdə isə cəmiyyətin gözləntisi, gümanı doğruldu. Dövlət dediyin budur! Vətəndaş öz dövlətinə arxayın olanda, biləndəki dövləti arxasındadı, o zaman inamlı və güclü olur.

"Dıqlas"da yanğın olan gündən durumdan faydalanmaq istəyənlər vardı. Revanşistlər, fürsətçilər sosial şəbəkələrdə xosunlaşırdılar. Əllərinə fürsət düşdüyünü zənn edirdilər. İki daşın bir arası, Milli Şuranın aprelin 6-na mitinq təyin etməsi bunun ən bariz nümunəsi sayıla bilər. Yəqin düşünüblər ki, bu qədər narazı adam var, onları özlərinin avantürist siyasətlərinə alət edə biləcəklər. 19 yanvar mitinqindən ağızlarında şirə qalıb deyəsən.

Müxalifət işini, fəaliyyətini iqtidarın yanlışları üzərində qurur. Hökumətin buraxdığı boşluqlardan istifadə edib, ictimai rəğbət qazanmağa çalışır. Bu, bütün dünyada belədi. Amma söhbət müxalifətdən gedir, normal, sivil, əxlaqlı müxalifətdən. Bu gün özünü hakimiyyətə müxalifət kimi göstərib, əslində ölkəyə, millətə düşmənçilik edənlər xalqın faciəsindən, pis günündən istifadə edib, siyasi xal qazanmaq istəyirlər. Ətrafına Azərbaycana düşmən mövqedə dayanan, bayrağımıza xain gözlə baxan, müstəqilliyimizə düşmən kəsilən xeyli tör-töküntünü yığmış, onların reabilitasiyası ilə məşğul olan Əli Kərimli, Cəmil Həsənli və onların Avropaya qaçmış işçiləri (məhz işçiləri!) özlərini xalqcanlı göstərməyə çalışsalar da, gerçək mahiyyətləri əksəriyyətə bəllidir. Onların tək istəyi ölkədə fəlakətlərin, yanğınların, bədbəxt hadisələrin çox olmasıdı. Fikirləşirlər ki, fəlakətlər, faciələr baş versə, xalq hakimiyyətdən narazı qalacaq və bunlar da ortaya çıxıb xalqı arxaları ilə aparacaqlar. Ölkənin və millətin faciəsi üzərindən hakimiyyətə gələcəklər…

Xaric güclər arasında da Azərbaycanda qarışıqlıq salmaq istəyənlər var. "Dıqlas"da yanğın baş verən gündən bunun qəsdlə törədildiyi versiyasına inananlar az deyildi. Bu versiya üzərində peşəkar və sosial mediada xeyli müzakirələr oldu. Çünki son illər oxşar hadisələr baş verib və bunun təxribat olması istisna edilməyib.

Ölkəmizi zəiflətmək, asılı vəziyyətə salmaq, vətəndaş-dövlət qarşıdurması yaratmaq, hətta mümkün olarsa, prosesləri inqilab, küçə etirazları həddinə çatdırmaq istəyənlərə Azərbaycan dövləti adına İlham Əliyev tutarlı cavab verdi. Ölkə başçısı zərər görmüş ticarətçilərə dövlət yardımı verilməsi haqda tapşırıq verdi. Bununla da "Dıqlas"la bağlı plan quranların niyyətləri kül oldu.

Və sonda... "Dıqlas"da malları yanan ticarətçilərə dövlət yardımının edilməsinə etiraz edənlər, bunun sığorta bazarına daha da mənfi təsir göstərəcəyini söyləyənlər, bu cür hallarda ziyanın büdcə hesabına ödənilməsinin doğru olmadığını yazanlar var. Ola bilsin bu arqumentlər ayrı-ayrılıqda peşəkar yöndən haqlıdı. Amma bu yardımlar Azərbaycan Respublikasının vətəndaşlarına edilir. Yardım edən də öz dövlətimizdir. Dövlət öz vətəndaşına yardım göstərirsə, məncə, əlavə şərhə ehtiyac qalmamalıdı.



**Azər AYXAN,**
**"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini**

# Sərdar Cəlaloğlu Real-a sərt cavab verdi

## "Biz dərhal belələrinin ipini çəkirik ki, a bala, sən..."

**Real Partiyasının Məclis üzvü Azər Qasımlı öz sosial şəbəkə hesabında "Ölkəmizin irəli getməsi üçün 1990-ların siyasətçilərindən və düşüncə tərzindən birdəfəlik qurtulmalıyıq" çağırışını edib.**

Azər Qasımlının bu fikirləri birmənalı qarşılanmayıb.

1990-cı illərin siyasətçilərindən sayılan ADP sədri Sərdar Cəlaloğlu Real Partiyası təmsilçisinin iddialarının absurd olduğunu bildirib. "Yeni Müsavat"a açıqlamasında S.Cəlaloğlu qeyd etdi ki, 1990-cı illərin ortaya çıxardığı siyasətçilər istiqlalçı qüvvələrdir. İstiqlalçı qüvvələrin isə siyasi səhnədən kənarlaşdırılmasını süni şəkildə ortaya atırlar. Ortaya yeni çıxan və əslində ortaya ciddi bir iş qoya bilməyən özünü yeni müxalifət adlandıranlar çalışırlar ki, istiqlalçı qüvvələr sıradan çıxsın: "Lakin unudurlar ki, sözdə "sən siyasətdən get, mən gəlim" deməklə iş olmur. Sən güclüsənsə, xalqı öz arxanca apara bilənsənsə öz siyasi mübarizəni apar və təbii proses olaraq gəl bizi sıradan çıxar. Sən özün ortaya ciddi mübarizə qoya, özünü qəbul etdirə bilmirsənsə, hansı məntiqlə 90-ların siyasətçilərinə "sən get mən gəlim" deyirsən?! Bu, bilirsiniz nəyə bənzəyir? Məsələn, bir adam dünya çempionudur, biri gəlib ona deyir ki, sən çempionatda iştirak eləmə mən iştirak edim dünya çempionu olmaq istəyirəm. Dünyada belə bir şey var?! Rəqabət var, mübarizə var. Sən demirsən ki, 1990-cı illərin siyasətçiləri köhnəlib? Yaxşı, sən təzəsən, irəli çıx özünü göstər və mənə qalib gəl. Amerikada təhsil almısan, Amerikanın sənə verdiyi ağılla mənə qalib gəl. Yoxsa, sən özün heç nə etmə, heç bir mübarizə aparma, sonra da çıx mənə "sən get biz gələk" tələbini ortaya qoy... Xeyir ola?! Niyə getməliyəm?! Mən meydanı, xalqı verməliyəm sənin kimi dil pəhləvanının, dələduzların əlinə ki, öz bildiyini edəsən?! Siyasət mübarizə meydanıdırsa, bu nə deməkdir ki, sən illərin siyasətçilərinə deyirsən ki, mən səndən önə keçə bilmirəm sən kənara çəkil. Sən ona görə qalib gələ, önə keçə bilmirsən ki, sən özün guya yeni siyasi qüvvə olsan da sənin ideyaların köhnədir, bu xalqa lazım deyil. Xalq ağı qaradan yaxşı seçə bilir. Baxıb görür ki, sənin dediyin sözlər, sənin yanaşman onun milli maraqlarına uyğun deyil. Ona görə də sənin arxanca heç kim gəlmir və gedir sənin hədəfə aldığın o istiqlalçı qüvvələrin dalınca. Odur ki, 1990-cı illərin siyasətçiləri getsin kimi fikirlər hamısı cəfəng sayaqlamalardan başqa şey deyil".



ADP sədri onu da bildirdi ki, 1990-cı illərin siyasətçiləri adlanan siyasətçilər əvvəldən siyasətdə olduqları üçün kimin kimlə bağlı olduğunu, kimin haradan hərəkətə gəldiyini, kimin nə istədiyini çox yaxşı bilirlər. Yenilər isə istəyirlər ki, özlərini xalqa əsl xilaskar, əsl müxalifət, əsl demokrat kimi təqdim eləsinlər: "Biz isə dərhal belələrinin ipini çəkirik ki, a bala, sən əslində filankəssən, sənin arxanda filankəs durur, pulunu filankəs verir, səni filankəs danışdırır və əslində sən bu məqsədi güdürsən. Ona görə də bizim ortalıqda olmağımız bunları narahat edir. Bunlara bir bulanıq su lazımdır ki, orada balıq tutsunlar. Qardaşım, gəl sən həqiqi siyasi mübarizə apar və ölkədə aparıcı qüvvə ol. Əlini qolunu tutmamışıq. Bizə gülünc çağırışlar etmək əvəzinə, bir düşün ki, biz əslində siyasi həyatın məhəng daşıyıq. İstiqlalçı siyasətçilər siyasi mübarizəyə ömürlərini qoyublar. İndi yumurtadan çıxıb hələ normal cükülldəməyi belə bacarmayanların tələbi ilə siyasətdən getməli deyillər. Zəhmət çəkib gəlib bizi apardıqları siyasi mübarizə ilə arxa plana keçirməyi bacarsınlar. Dünya tarixində çox saylı nümunələr var ki, öz xalqı üçün müstəsna xidmət göstərən bir çox adamlar məhz 40-50 il müxalifət olublar. Məsələn, Mahatma Qandi, Nelson Mandela, İmam Xomeyni. İllərlə siyasi mübarizə meydanında olanlar xalqı və dövləti üçün böyük işlər görə bilirlər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019

# Azərbaycanın milli təhlükəsizlik orqanı rəhbərləri kimlər olub?

## 100 yaşını qeyd edən bu struktura Məmmədbağır Şeyxzamanlıdan başlayaraq, səs-küylü Eldar Mahmudova qədər rəhbərlik edənlərin tarixçəsi...

**Martın 28-də Azərbaycanda ənənəvi olaraq təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı qeyd olunur. Bu il isə Azərbaycanın milli təhlükəsizlik orqanlarının yaradılmasının 100 illiyi tamam olur. Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə nazirlik tərkibində kəşfiyyat və əks-kəşfiyyat bölməsi (kvartirmeyster) təşkil edilib.**



"Yeni Müsavat" xatırladır ki, Azərbaycanın ilk milli təhlükəsizlik naziri Məmmədbağır Şeyxzamanlıdır. O, Azərbaycan Demokratik Respublikasının (ADR) 1919-cu il iyun və avqust aylarında MTN rəhbəri olub, avqustun 1920-ci ilin martına qədər Nağı bəy Şeyxzamanlı bu vəzifəni tutub. Sovetləşmədən sonra təşkilatın üzvləri repressiyalara məruz qalib, M.Şeyxzamanlı başda olmaqla əksər rəhbər heyət güllələnib, N.Şeyxzamanlı Türkiyəyə mühacirət edib.

Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanıb, bir müddət Daxili İşlər Xalq Komissarlığının ("NKVD") tərkibində fəaliyyət göstərib, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunub.

Sovet Azərbaycanında isə bu postu tutan əsasən ruslar olsa da, azərbaycanlılara da bu vəzifə verilib. Bunlar tarixi ardıcıllıqla Baba Əliyev, Eyyub Xanbudaqov, Mircəfər Bağırov, Novruz Rzayev, Heydər Əliyev, Ziya Yusifzadə və Vaqif Hüseynovdur. Sonuncusu müstəqil Azərbaycanın ilk vaxtlarında da milli təhlükəsizlik orqanı rəhbəri olub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranıb.

Prezident Heydər Əliyevin 1997-ci il 23 mart tarixli fərmanı ilə 28 mart - milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan olunub.

V.Hüseynov 1991-ci ilin sentyabrına qədər nazir işləyib. Həmin vaxtdan 1992-ci ilin mayına qədər isə İlhüseyn Hüseynov nazir təyin olunub. O, 2006-cı ildə vəfat edib.

1992-ci ilin mayından 1993-cü ilin iyununa qədər Fəxrəddin Təhməzov MTN rəhbəri işləyib. O, Gəncə qiyamı ilə bağlı qısa müddətli həbs cəzası alıb. Onun davamçısı Nəriman İmranov olub və cəmi bir il, 1994-cü ilə qədər vəzifədə qalıb.

1994-cü il dekabrın 21-də bir qrup şəxsin nazirliyin təcridxanasından qaçırılmasının təşkilinə görə vətənə xəyanət ittihamı ilə ömürlük məhkum edilib. 2002-ci ildə əfv fərmanı ilə azadlığa buraxılıb.

N.İmranovdan sonra uzun müddət MTN rəhbəri Namiq Abbasov işləyib. O, 10 il - 2004-cü ilə qədər nazir olub. N.Abbasov 2004-2012-ci illərdə Azərbaycanın Özbəkistanda səfiri işləyib. Ən nəhayət, N.Abbasovun yerinə gələn və hələ ki ən uzun müddət MTN rəhbəri işləyən Eldar Mahmudov olub. E.Mahmudov təhlükəsizlik orqanı rəhbərləri arasında ən səs-küylü şəkildə vəzifədən gedən nazirdir.

2005-ci ildə keçirdiyi əməliyyatla qanqster Hacı Məmmədovun cinayətlərini ifşa edən MTN rəhbəri 2015-ci ildə prezidentin sərəncamı ilə vəzifəsindən azad olunub, Milli Təhlükəsizlik Nazirliyi ləğv edilib, bu strukturun generalları, polkovnikləri, rütbəli şəxsləri həbs edilib, antiterror mərkəzinin rəis müavini İlqar Əliyev istintaq təcridxanasında özünü asıb. Onlar şantaj, korrupsiya, vəzifə səlahiyyətindən sui-istifadədə ittiham olunublar, E.Mahmudovun köməkçisi Vüqar Mahmudov da həbs edilib, özü istintaqa çağırılaraq dindirilib.

MTN-in ləğvindən sonra prezidentin sərəncamı ilə Dövlət Təhlükəsizlik Xidməti yaradıldı və Ədliyyə Nazirliyinin Penitensiar Xidmət rəisi Mədət Quliyev bu qurumun başına gətirildi.

General-polkovnik, Milli Qəhrəman M.Quliyev milli təhlükəsizliyin təmin edilməsi və milli maraqların müdafiəsi sahəsində səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**


Mədət Quliyev


Eldar Mahmudov


İlhüseyn Hüseynov


Nəriman İmranov


Fəxrəddin Təhməzov


Namiq Abbasov

# Əli İnsanov qeydiyyatı olan müxalif partiyaya gəlir

## **Partiya sədri:** "Onunla görüşmüşəm, vəziyyəti tam təhlil edəndən sonra mətbuat konfransı keçirməyi düşünür"

**Sabiq səhiyyə naziri Əli İnsanovun həbsdən çıxdıqdan sonra siyasətlə məşğul olacağını bəyan etməsi onun yeni siyasi partiya yaradacağı barədə söhbətlərə yol açmışdı. Hələ ki Əli İnsanov yeni partiya təsis edəcəyi haqda heç bir açıqlama verməyib. Bu istiqamətdə hər hansı işin aparıldığı da müşahidə edilmir. Belə iddialar var ki, Əli İnsanov yeni partiya yaratmaq istəyindən vaz keçib. Səbəb isə odur ki, sabiq nazir onun yaradacağı partiyanın dövlət qeydiyyatına alınmayacağını dəqiq bilir. Ona görə də sabiq nazirin dövlət qeydiyyatında olan müxalif partiyalardan birinə qatılacağı barədə xəbərlər yayılmaqdadır. Xəbərlərdə deyilir ki, Əli İnsanovun ya Vətəndaş və İnkişaf Partiyasına, ya da Böyük Azərbaycan Partiyasına üzv olacağı, ardınca isə partiyanın lideri elan ediləcəyi ehtimalı var.**



Qeyd edək ki, Vətəndaş və İnkişaf Partiyası 2005-ci ildə AMİP-in sədri səlahiyyətlərini müvəqqəti icra edən Əli Əliyev tərəfindən yaradılıb. Böyük Azərbaycan Partiyasının qurucusu və sədri Elşad Musayev də AMİP-də rəhbər vəzifədə-baş katib vəzifəsində olub. AMİP-dən getdikdən sonra Böyük Azərbaycan Partiyasını yaradıb.

Bəs Əli İnsanovun bu partiyalardan hansınasa üzv olacağı barədə deyilənlər əsaslıdırmı? Bu partiyaların rəhbərləri ilə sabiq nazir arasında sözügedən məsələ istiqamətində danışıqlar olubmu?

**VİP sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, Əli İnsanovun Vətəndaş və İnkişaf Partiyasına gələcəyi barədə söhbəti birinci dəfədir eşidir:** "Bizim partiyada lider postu yoxdur, sədr var. Sədr elə lider funksiyalarını daşıyır. Əgər Əli müəllim bizim partiyaya üzv olmaqla bağlı müraciət etsə, məmnuniyyətlə müzakirə edərik. Belə hadisələr partiyanın kollegial qurumlarında müzakirə edilir. O ki qaldı təmasımıza, Əli İnsanovla həyatda heç vaxt görüşməmişik. Hansı partiyanı seçəcək, onun qərarıdır. Düşünürəm ki, onun müdafiəsini həyata keçirmiş, onun siyasi baxışlarını bölüşən başqa təşkilatlar bu rəqabətdə bizdən daha da öndədirlər".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirdi ki, Əli İnsanovla görüşüb, sabiq nazir hazırda evindədir. Onu ziyarət edən çoxsaylı insanlarla, qohum-əqrəba ilə görüşür. Ölkədəki vəziyyəti, siyasi proseslər və siyasi münasibətləri araşdırır:** "Dünən görüşmüşəm. Sağlamlığı qaydasında, əhval-ruhiyyəsi yerindədir. Heç bir gərginlik hiss etmədim, əksinə, çox inamlı və rahat görünür. Bir sıra tanınmış şəxslərlə görüşüb. Vəziyyəti tam təhlil edəndən sonra mətbuat konfransı keçirməyi planlayır. Onunla görüşmək istəyən siyasilərlə, mətbuat nümayəndələri ilə, ictimai-siyasi xadimlərlə görüşəcəyini mənə söylədi. Siyasi fəaliyyətini hansı formada bəyan edəcəyi də onun təhlillərindən asılıdır. Zaman özü hər şeyi göstərəcək. BAP-la, digər siyasi təşkilatlarla əməkdaşlıq məsələsinə də zamanında cavab veriləcək".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# İlqar Məmmədovun ölkədən çıxışına icazə verildi

**Ali Məhkəmədə Real Partiyasının sədri İlqar Məmmədovun şikayətinə baxılıb.**

Xəbərə görə, İ.Məmmədov onun barəsindəki cinayət işinə xitam verilməsini istəyib.

Məhkəmə şikayəti qismən təmin edib. İ.Məmmədova verilən şərti cəza ləğv olunub və onun ölkədən çıxışına qoyulan qadağa götürülüb.

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019



# Siyasi partiyalara 1 aprel sürprizi

**Aprelin 1-də qeydiyyatdan keçən siyasi partiyaların ötən il üzrə Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim etməli olduqları maliyyə hesabatının vaxtı bitir. Müddət bitənə qədər hesabat təqdim etməyən partiyaları hansı talenin gözlədiyi qaranlıq qalır.**

Artıq partiyaların bir qismi hesabatlarını MSK-ya təqdim ediblər. Qurumun saytında 55 siyasi partiyadan 23-nün hesabatının qəbul olunduğu öz əksini tapıb.





## **Mikayıl Rəhimov:** "MSK-nın saytını açsanız görərsiniz ki..."
## **Tural Abbaslı:** "Partiyaların qeydiyyatının ləğvi barədə düşünmək əvəzinə..."

**MSK-nın katibi Mikayıl Rəhimov "Yeni Müsavat"a açıqlamasında bunları dedi:** "Partiyaların çoxu hesabatlarını indiyə qədər təqdim ediblər. Etməyənlərin aprelin 1-nə qədər vaxtları var. Biz gözləyirik. Ümid edirik ki, qeydiyyatı olan bütün partiyalar hesabatlarını təqdim edəcəklər. Hər il bütün partiyalar hesabatlarını vaxtında təqdim ediblər. MSK-nın saytını açsanız görərsiniz ki, hesabat təqdim edən partiyaların adları yerləşdirilib. Proses hələ də davam edir. Aprelin 1-dən sonra digər məsələlərlə bağlı müzakirə aparmaq olar. Kimin təqdim edib-etməyəcəyi məlum olacaq. Hər şeyi aydınlaşdırandan sonra mövqeyimiz olacaq. Partiya nə üçün hesabat təqdim etməməlidir? Biz polis orqanı deyilik, Mərkəzi Seçki Komissiyasıyıq. Partiyalarla işləyib, onların maliyyə hesabatlarını alırıq, hesabatların düzgün hazırlanmasında onlara yardımçı oluruq, onları biz ictimailəşdiririk. Hansı siyasi partiya istəməz ki, onun maliyyə fəaliyyəti ictimailəşsin? Onun üçün fəaliyyət göstərən bir dövlət orqanı var. Bizim partiyalar hər şeyi düzgün qiymətləndirirlər. Bunun üçün bütün partiyaların hesabatlarını təqdim edəcəklərini düşünürəm. Bəzi partiyalar var ki, fəaliyyətlərində çatışmazlıqlar müşahidə olunur. Elə partiya var ki, rəhbəri rəhmətə gedib. Bütün məsələləri aydınlaşdıracağıq. Əsas həldəf odur ki, siyasi partiyalar maliyyə fəaliyyətlərində şəffaf olsunlar. Bu məsələlərdə biz partiyalara hər cür yardımlar edirik".

**AĞ Partiya başqanı Tural Abbaslı hesabatı aidiyyəti orqana göndərdiklərini söylədi:** "AĞ Partiya olaraq biz maliyyə hesabatımızı hər il olduğu kimi poçt vasitəsilə MSK-ya göndərmişik. Yəni bizim hesabatı verə bilmədiyimiz hansısa maliyyə gəlirimiz yoxdur. Zatən partiyaların maliyyələşmə məsələsi Azərbaycanda bərbad vəziyyətdədir. İqtidar ancaq özünə loyal olan partiyaları parlamentə buraxaraq, yalnız onların büdcədən maliyyələşməsinə şərait yaradıb. Ümumiyyətlə, "Siyasi partiyalar haqda" Qanunda büdcədən maliyyələşmə prinsipləri ədalətsiz və obyektiv deyil. Bu başqa məsələnin mövzusudur. Hazırkı qanuna əsasən maliyyə hesabatını verməyən partiyaların dövlət qeydiyyatı məsələsinə baxıla bilər. Ancaq mən inanmıram ki, hakimiyyət hazırkı qəliz siyasi vəziyyətdə belə bir addım atsın və hansısa partiyanın qeydiyyatını ləğv etsin. Bir daha qeyd edirəm ki, hər hansı bir siyasi partiyanın qeydiyyatını ləğv etmək bilindiyi qədər də texniki məsələ deyil. Bu çox ciddi nəticələri ola biləcək riskli siyasi addımdır. Mən iqtidara məsləhət görərdim ki, partiyaların qeydiyyatının ləğvi barədə düşünmək əvəzinə, partiyaların siyasi səhnədə rolunun artırılması barədə düşünsün. Və bu istiqamətdə həqiqi islahatlar etsin. Əks təqdirdə, siyasi arenada partiyalardan boşalan yerləri hansı qüvvələrin dolduracağını hesablamaq çətin deyil. Bu məsələ iqtidar-müxalifət məsələsi deyil. Bu dövlət və dövlətçilik məsələsidir".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, martın 27-də partiyanın maliyyə hesabatının MSK-ya təqdim ediblər:** "Hesabatın təqdim edilməsi qanunun tələbidir. Fikrimcə, vermək lazımdır. Təqdim etməyənlər özlərinə qarşı addım atılması üçün hakimiyyətə şərait yaradırlar. Qaydanı pozanlara tətbiq olunacaq sanksiya haqda bir söz deyə bilmərəm".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev də hesabatı verdiklərini qeyd etdi:** "Hesabat verməyən partiyalar barədə MSK Ədliyyə Nazirliyinə məlumat verə bilər. Qeydiyyat məhkəmə yolu ilə ləğv ola bilər. MSK-nın belə səlahiyyəti yoxdur".

**KXCP-nin İdarə Heyətinin üzvü Xəzər Teyyublu qanunlara əməl olunmasının vacibliyini vurğuladı:** "Ənənəvi olaraq partiyalar illik maliyyə hesabatı verməlidirlər. Bu hesabatların MSK-ya təqdim olunması məntiqli görünməsə də, qanunlara riayət etmək partiyaların borcudur. KXCP-nin gəliri olmadığı üçün illik hesabatı sıfırlama şəklində verir. Hesabatların təqdim olunmaması qanunda müəyyən cərimələr nəzərdə tutur. Bunun üçün də qanunlara əməl olunmalıdır".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# "Kişilərin qucağında rəqs edən müğənni"nin al-əlvan pairı



**Samir SARI**

**Dünən sabah ertə ölkəmizin elektron mediasında ilk gördüyüm iki xəbərin başlıqları beləydi: "İtaliya polisi "Kosa Nostra" mafiya şəbəkəsinə qarşı irimiqyaslı xüsusi əməliyyat təşkil edib"; "Azərbaycanlı müğənni əlində içki kişilərin qucağında rəqs etdi - VİDEO".**

İndi sizə elə gəlməsin ki, müəllif bu iki xəbər arasında hansısa bir əlaqə quracaq. Xeyr, türkün sözü, nə əlaqə. Əlaqə-zad yoxdur.

İtaliya polisi həmişə belə "irimiqyaslı xüsusi əməliyyatlar" təşkil edir, hər dəfə 30-40 mafiozu Xızı beçəsi kimi ələkləyib basır içəri, mediada böyük hay-küy qopur, sonra həmin banditləri bir-bir, iki-bir buraxırlar və heç kəsin xəbəri olmur. Buraxmasaydılar, indiyə İtaliyada mafiozlar tutulub, qırılıb qurtarmış olardı.

Bu heç. Bizdə də vaxtaşırı hansısa qadın müğənni içki içir, kişilərlə bir metrdən yaxın məsafədə olur, oynayr, deyir-gülür, xalqın uşağının tərbiyəsini pozur.

"Kişilərin qucağında oynayan müğənni"nin qəşəng şəkli də vardı, xəbəri açıb baxdım, qısa müddət çəkən videosunu da izlədim.

Elə bir müdhiş tərbiyəsizlik yoxdur. Aydınca görünür ki, müğənni xanım (güman ki, adi toyxana müğənnisidir) bir-iki badə şampan (və ya tekila, viski, rus arağı, şərab - zövqünə görə) gillədib, kefi kökdür və özünə simsar saydığı, bəlkə də qohumu düşən gənc oğlanlarla rəqs edir. Bu rəqs təxminən Argentina tanqosu ilə Çobanzadə (restoranlar küçəsi nəzərdə tutulur) rəqsinin qarışığı bir şeydir.

Allah tərəfi, pis oynamırdılar. Hər halda, rəqsdə emosiya vardı, tamaşaçılar da, ərəbin sözü olmasın, ehtizaza gəlmişdilər.

Adam o videoya baxmağa başlayanda əvvəlcə elə güman edir ki, indicə biabırçılıq olacaq, ya gənc oğlan müğənni qadını camaatın içində basmarlayıb öpəcək, ya da "yel vurdu, rübəndi atdı üzündən" rüsvayçılığı olacaq, xanımın libası çırmanacaq və gümüş topuğundakı xalı görünəcək.

Yox, elə şey olmadı, eləcə, saqqallı gənc ətli-canlı müğənnini qucağında quş kimi kimi fırlayıb yerə qoydu və video bitdi. Hessad. Elə bu? Bəli, elə bu...

Amma indi baxın, bu hadisə saytlarda xəbər, sosial şəbəkələrdə müzakirə mövzusu olub.

Təbii ki, əksəriyyət müğənni xanımın mentalitetimizə zidd olan bu hərəkətini pisləyir. Xanımı yerdən-yerə vururlar, göyə qaldırıb fırlayır, sonra torpağa çırpırlar.

Ən maraqlısı budur ki, həmin videonu qadın müğənni özü yayıb. Bu da o deməkdir ki, o, bu rəqsinin bu cür reaksiya doğuracağını, onu dilə-dişə salacağını öncədən bilib. Əslində hamı bilir axı, ölkədə n qədər fəal istifadəçi var və onlar bu cür "üzdəniraq hərəkət edənlər"i daima qınayırlar.

Əgər müğənni xanım belə bir reaksiyanın olacağını öncədən hesablayıbsa, demək, bunun məşhurlaşmaq üçün ən kəsə və ən effektiv yol olduğunu da hesablayıb. Yəni, əziz həmvətənlər, bu bir piar, reklam vasitəsidir və sizdən, bizdən istifadə edib adlarını cəmiyyətə tanıtdırır, məqsədlərinə çatırlar.

Əmin olun ki, o xanım 3-4 ildən sonra çiyninə kələğayı atıb, televiziya verilişlərində gənclərin tərbiyəsindən, əxlaqdan danışacaq.

17-18 il əvvəl müğənni R. da beləydi. Məsələn, onun o vaxtlar bir TV-dəki şou verilişində aparıcının qucağına tullandığı yadımdadır. Belə jesti adətən qol vurmuş futbolçu məhsuldar ötürmə vermiş partnyoruna qarşı edir. Hətta o hərəkət R.-da daha yaxşı alınmışdı, ayaqlarını aparıcının belinə daha rahat dolamışdı. Amma görün, o, indi elə hərəkət edirmi? Etmir. Çünki yaşı o yaş deyil, üstəlik, kifayət qədər şöhrəti də var, daha belə şoulara ehtiyacı yoxdur.

Vaxt gələcək, "kişilərin qucağında rəqs edən müğənni" də elə hərəkətlər etməyəcək, yeniyetmələrin, gənclərin tərbiyəsini pozmayacaq.

Hərçənd bu ifadə də bir az köhnəlib, bir xeyli də çeynənib. İnternet resurslarında tərbiyənin pozulmasına səbəb olacaq yüz qat artıq açıq-saçıqlıqda, vulqarlıqda, iyrənclikdə videolar var. Onlara baxıb pozulmayan gənclər gəlib bir azərbaycanlı müğənninin "Zita və Gita" filmində Gitanın əlində şərab badəsi ilə oynamağını yamsılamasındanmı pozulacaq?

Sözümün canı odur ki, buraxın, müğənnilər, manıslar özlərini necə aparırlarsa, aparsınlar, özlərinə nəyi layiq görürlərsə, görsünlər, onların hər hərəkətini, hər sözünü müzakirə etməyək, adlarını hallandırmayaq, bu cür "yaradıcılıqları" izləməyək. Bir də görəcəyik, onlar da rahatdır, biz də.

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019



# Bakının Tiflisə İrəvan üçün xüsusi mesajı - seçim anı

## Paşinyan qəliz dilemma ilə üz-üzə; "The Washington Times": "Ermənistan üçün müvəffəqiyyətin açarı Azərbaycana qarşı ərazi iddiasından əl çəkməkdir..."

**Ermənistanda "məxməri inqilab"ın ildönümü yaxınlaşdıqca baş nazir Nikol Paşinyana qarşı tənqidin dozası artır. Özü də bu tənqid təkcə siyasi rəqiblərdən gəlmir. İnqilabçı cameəni təmsil eləmiş ekspert və siyasilər tərəfindən də səslənir. Çünki artıq vədlər vermək zamanı ötüb və nəticələrdən danışmaq vaxtı yetişir. Nəticələr isə inqilabçı xalqın gözlədiyinin əksinə, neqativ işarəlidir. Ölkədə bu müddətdə nə işsizlik və yoxsulluq azalıb, nə də kütləvi köç səngiyib.**

"Yeni hökumət Ermənistan yerli, xüsusən də xarici investorlar üçün cəlbedici edəcək ideya və layihələr təqdim edə bilmir". "Yeni Müsavat" xəbər verir ki, bu barədə 1 in.am portalında erməni siyasi şərhçi Qarnik Gevorkyanın məqaləsində deyilir.

"Belə çıxır ki, biz baş nazirin düşüncəsi ilə onun komandasının imkanlarının üst-üstə düşmədiyi situasiya ilə üz-üzəyik. Aydındır ki, bu fərq aradan qalxmayınca ölkədə hər hansı ciddi dəyişikliyə nal olmaq mümkün olmayacaq, o ki ola "iqtisadi inqilab"a. Odur ki, Nikol Paşinyan indi çətin dilemma qarşısındadır: ya o, özünün ambisiyalarından və "iqtisadi inqilab" kimi hədəflərindən vaz keçməlidir, ya da komandasını öz məqsədlərinin tələb elədiyi standartlar səviyyəsinə qaldırmalıdır", - deyə müəllif xəbərdarlıq edib.

Ancaq Ermənistanın ən böyük problemi heç də hakim komandaya və ya iqtidarda kimin olmasına bağlı deyil. Ölkənin düşdüyü blokada vəziyyətinin yaratdığı obyektiv reallıqlar və sərt məhdudiyyətlərlə ilgilidir. Söhbət ən əvvəl həlli uzanan Qarabağ konfliktindən gedir.

*****

Bu arada nüfuzlu "The Washington Times" qəzetində Ermənistanda "məxməri inqilab"dan sonrakı durum, yeni baş nazir Paşinyanın qeyri-ardıcıl siyasəti və ölkənin davam edən ağır siyasi və iqtisadi vəziyyətini təhlil edən məqalə yer alıb (AzərTAc). Məqalədə əvvəlcə özünü islahatçı və demokrat adlandıran Paşinyanın hakimiyyəti ələ keçirməsinin ildönümünün yaxınlaşdığı bildirilir.

Müəllif xatırladır ki, Avropa ölkələri, Ermənistanın ABŞ Konqresində olan qatı tərəfdarları inqilabdan sonra N.Paşinyanı tərifləməyə başlayıblar. Bununla belə, o, əlavə edir ki, Ağ Ev və Dövlət Departamenti prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun yaxınlarda həyata keçirdiyi İrəvan səfərindən sonra Ermənistan hökumətinin yeni rəhbərinə kifayət qədər skeptik yanaşır. Regiona səfər etmiş Boltonun mövqeyini təhlil edən müəllif yazır ki, müşavir Cənubi Qafqazı Birləşmiş Ştatlar üçün strateji cəhətdən əhəmiyyətli region, Azərbaycan və Gürcüstanı ABŞ-ın etibarlı müttəfiqləri hesab etməklə yanaşı, siyasi cəhətdən müstəqil dövlət olmayan Ermənistanın hələ də bu "layiqli kluba" daxil ola bilmədiyi qənaətindədir.

**Yazıda daha sonra Boltonun sözlərinə istinadla bildirilir ki, İrəvan üçün müvəffəqiyyətin açarı qondarma və qeyri-qanuni "dövlət" yaratmaq adı altında Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi ilə nəticələnmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həllidir.** "Çünki bu münaqişənin nizamlanması Ermənistanı transformasiya edə bilər və Paşinyanın da öz inqilabi çıxışlarında vəd etdiyi kimi, onun müstəqillik, müasirlik və tərəqqi yoluna qədəm qoymasına şərait yaradar. Beləliklə, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda müharibəyə son qoymalı, eyni zamanda vassal dövlət olmaqdan qurtulmalı və tərəfdaşlığa səy göstərən davranış nümayiş etdirməlidir. Münaqişə Ermənistanın tarixində dərin iz buraxıb və bu ölkənin inkişafdan geri qalmasını, dərin yoxsulluğu, kəskin "beyin axınını", ən əsası, onun digər dövlətlərdən əsaslı və köklü şəkildə asılılığını gücləndirib" - məqalədə vurğulanır.

**Məqalənin sonunda qeyd edilir ki, Ermənistan öz qonşularından nümunə götürə bilər:** "Neft və qazla zəngin Azərbaycan və təşəbbüskar Gürcüstan böyük iqtisadi inkişafdan bəhrələnirlər: neft və qaz kəmərləri, limanlar, Şərq-Qərb dəmir yolu, peyklər, turizm, təhsil, müasir səhiyyə, elm və incəsənət, habelə dünya ölkələri arasında layiqli yer bu nailiyyətlərdəndir. Lakin bir ildən sonra Paşinyanın erməni xalqına vəd etdiyi inkişafdan əsər-əlamət yoxdur. Bu ölkənin iqtisadiyyatı hələ də öz əlində deyil".

*****

Qisası, ABŞ-ın nüfuzlu nəşri Nikol Paşinyan hökumətinə məsləhət görür ki, ölkəsini normal inkişafa qovuşdurmaq üçün ilk növbədə Rusiyanın vassal asılılığından qurtarsın. Vassal asılılığına son qoymaq üçünsə İrəvan Azərbaycana qarşı əsassız torpaq iddiasından əl çəkməlidir.

Bu yerdə ötən ilin oktyabrında Con Boltonun İrəvanda səfərdə olarkən verdiyi bəyanatı yada salmaq lazım gəlir. Bolton bildirmişdi ki, əgər baş nazir Nikol Paşinyan ölkəsinin rifahını, Rusiya asılılığından və blokadadan qurtulmasını istəyirsə, o zaman ilk növbədə öz əsas qonşuları Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmalı, Qarabağ məsələsində dönüşə nail olmalıdır. Eyni tələb bu ilin yanvarında prezident Donald Trampın N.Paşinyana göndərdiyi təbrik məktubunda yer alıb.

Məsələ ondadır ki, Azərbaycanla müharibə vəziyyəti, həll olunmamış Qarabağ problemi Ermənistana heç qonşu Gürcüstanla da normal münasibətlər qurmağa imkan vermir - geosiyasi səbəblər mane olur. Bu xüsusda maraqlı bir detal.

**"Bu günlərdə Nikol Paşinyan gürcü həmkarı ilə sərhəddə görüşüb. O zaman bu görüş barədə açıqlama verilmədi. Görüş təəccüb doğurdu, çünki sözügedən şəxslər bir müddət əvvəl görüşmüşdülər. Bəs NATO Gürcüstanda təlim keçirdiyi günlərdə Gürcüstanın baş nazirini sərhəddə erməni həmkarı ilə görüşməyə nə vadar edirdi?"**

**Bu sözlər "Atlas" Araşdırmalar Mərkəzinin təhlilində yer alıb. Məqalədə deyilir:** "İndi Paşinyan elan edir ki, sərhəddə Ermənistanla Gürcüstan arasında xeyli birgə iqtisadi layihə müzakirə olunub. Əsas da nəqliyyat layihələrini və logistik mərkəzlərin tikintisini gündəmə gətiriblər. Bu arada Paşinyanın Gürcüstanla əməkdaşlığa dair bu cümləsi diqqəti cəlb edir: "İki ölkə arasındakı əlaqələri geosiyasi təsirlərin kənarında saxlamaq olur, ancaq daha böyük layihələr müzakirə olunarkən geosiyasi təsirlər ön plana çıxır"".

**Təhlildə bildirilir ki, Paşinyan "geosiyasi təsirlər" dedikdə böyük ehtimalla, iki ölkəni nəzərdə tutur - Rusiya və Azərbaycan. Müəllifə görə, erməni baş nazir anlayır ki, Ermənistan-Gürcüstan əlaqələrini Rusiyanın təsirlərinə görə inkişaf etdirmək çətindir. Rusiya ilə Gürcüstan arasında diplomatik münasibətlərin olmaması işğalçı ölkənin Gürcüstan üzərindən Rusiya ilə əlaqələrinə mənfi təsir edir:** "Azərbaycan amili də var. Gürcüstanın əsas regional layihələri Azərbaycan və Türkiyə ilə bağlıdır. Ermənistan bu durumu dəyişmək gücündə deyil. Deməli, Paşinyanın bu vəziyyətdə məqsədi Rusiya və Azərbaycan təsirlərindən kənarda Gürcüstanla əməkdaşlığı inkişaf etdirməyin yollarını tapmaqdır. Ermənistanla hansı istiqamətlərdə əməkdaşlıq etmək Gürcüstanın daxili işidir. Ancaq Gürcüstanda onu da bilməlidirlər ki, bu əməkdaşlıq Azərbaycanda xoş qarşılanmır. Tiflis Paşinyanın da işarə etdiyi geosiyasi təsirləri nəzərə almalıdır. Bunun üçün isə Bakıdan Tiflisə zaman-zaman mesajlar göndərilməlidir".

Bakından Tiflisə göndərilən və bundan sonra göndəriləcək mesajlar şübhəsiz ki, həm də İrəvan üçündür. O anlamda ki, işğalçı ölkə bölgədəki böyük inteqrasiya prosesinə və regional layihələrə qoşulmaq istəyirsə, öncə Gürcüstanla yox, Azərbaycanla anlaşmalıdır...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# İşğalçıya vaxt və ultimatum verəkmi?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**"4 günlük" aprel müharibəsinin üçüncü ildönümü yaxınlaşır. İşğalçı ordunun "məğlubedilməzlik" mifini darmadağın edən və o vaxtkı Sərkisyan rejiminə ağrılı bir qulaqburması kimi tarixə düşən bu blits-hərbi uğurun müəllifi Azərbaycan əsgəri idi.**

Erməni tərəfinin həmin lokal müharibə və hərbi uğursuzluqla bağlı qaldırdığı vay-şivən o vaxt heç bir nəticə vermədi. Vasitəçi dövlətlərdən Azərbaycanın (işğala məruz qalan ölkənin!) cəzalandırılmasını, separatçı rejimin "müstəqilliyini" tanımağı həyasızcasına tələb edən İrəvan yetkililərinin arzusu ürəyində qaldı. Az sonra Serj Sərkisyan irəli sürdüyü ön şərtlərdən vaz keçib Vyanada Azərbaycan prezidenti İlham Əliyevlə bir araya gəlməli oldu.

3 il öncəki "4 günlük müharibə"nin əsas dərsi də budur: Azərbaycan öz qanuni ərazisi daxilində işğalçı qüvvələrə qarşı yenə də lokal hərbi əməliyyatlar keçirərsə, buna dünya, Ermənistanın təmsil olunduğu "Rus NATO-su" heç nə deməyəcək. Erməniləri necə vaxtdır təlaşlandıran da Azərbaycanın müharibə haqqını öz əlində saxlamasıdır.

Bu gün yenə Vyanada iki ölkənin rəhbərləri - İlham Əliyev və Nikol Paşinyan bir araya gələcəklər. Bu, onlar arasında ilk rəsmi təmas olacaq. Lakin ciddi siyasi ekspertlər bu görüşdən də nəticə gözləmirlər. Ən azından, erməni baş nazir Paşinyanın Vyana görüşü ərəfəsi sərgilədiyi mövqe, verdiyi absurd bəyanatlar nikbinliyə yer saxlamır.

Ancaq nəticəsizlik də özlüyündə nəticədir. O mənada ki, Vyanada Nikol Paşinyana Qarabağ məsələsində tezliklə konstruktiv mövqe tutmazsa, 3 il öncəki ağrılı "aprel qulaqburması" bütün ciddiliyi ilə xatırladıla bilər. Nəzərə alsaq ki, Bakı bundan sonra danışıq xətrinə danışıq aparmağı məqbul saymır, o zaman bugünkü görüş müharibə öncəsi son təmas da ola bilər...

Paşinyanın devirdiyi sələfinin yolu ilə getməsi absurd olmaqla yanaşı, ona və hakimiyyətinə sələfi kimi yaxşı heç nə vəd eləmir. Burası dəqiqdir. Çünki bu, blokadanın güclənməsinə, dağıdıcı müharibəyə aparan bir yoldur. Seçimi indi qoy o, özü eləsin. İşğal rejimini uzunömürlü eləmək üçün gətirilən ənənəvi bəhanələr daha işləmir. Belə bəhanələrdən artıq vasitəçilər də bezmiş kimi görünürlər. Odur ki, Paşinyan dönəmində ya sülh prosesində nəhayət, müsbətə real dönüş olacaq, ya da müharibə bu il qaçılmazdır.

Deyirlər, ən pus sülh müharibədən yaxşıdır. Bəlkə də. Fəqət, bu pis sülh illər ərzində normal sülhə gətirmirsə, onda necə? Əlbəttə, normalda heç kim gənc əsgərlərin ölümünü, dağıntı-fəlakət istəməz. Ancaq bunu gərək işğalçı tərəf də istəməsin, danışıqları imitasiya eləməkdən vaz keçsin. Belə imitasiyanın sonu bir gen gəlməlidir və mütləq gələcək. Atəşkəs on illər ərzində sülh sazişi ilə yekunlaşmırsa, deməli, savaşla yekunlaşacaq...

Neçə gündür "Sasna Tser" adlı radikal qruplaşma Dağlıq Qarabağda bölgənin Ermənistana birləşdirilməsi üçün imza toplayır. Ancaq ciddi nəticə əldə edə bilməyib. Separatçı rejim maneə yaradır. Deyirlər, "bizə birləşmə yox, Dağlıq Qarabağın "müstəqilliyi" lazımdır". Amma biz ki, ermənilərin son hədəfini yaxşı bilirik - "miatsum" ("birləşmə").

Ermənilər beləcə, həmişə bizimlə məkrli oyun oynayıblar. İşğalçı ölkədə hakimiyyətlər dəyişsə də, iqtidarda 1 ildir "demokrat" Paşinyan ola da, "miatsum" oyununun mahiyyəti dəyişməyib. Bu oyunu pozmaq zamanıdır. Ya silahla, ya da güclü və çevik diplomatiya ilə. İşğalçıya sülhə gəlmək üçün axırıncı dəfə konkret vaxt, lap elə ultimatum verməyin zamanı çatıb.

Şəksiz, belə danışıqları ərazilərimizin azad olunmasına gətirən vasitə deyil. Biz sülhpərvər ölkə kimi bu cür danışıqlara getməklə dünyaya yalnız bir şeyi nümayiş etdirməliyik: Ermənistan sülhə hazır deyil, sülh üçün heç nə etmir, sülhə şans saxlamayıb və müharibə olacaqsa, bizim günahımızdan olmayacaq. Azərbaycan və Ermənistan rəhbərlərinin bugünkü görüşü ən əvvəl bu xüsusda önəmlidir və dönüş nöqtəsi ola bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019

**Bu gün, martın 29-da Avstriyanın paytaxtı Vyanada ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçiriləcək. Bu, Azərbaycan və Ermənistan liderləri arasında keçiriləcək ilk rəsmi görüş olacaq.**







# Bu gün Vyanada Qarabağ danışıqları olacaq

İşğalçı ölkə Avstriya paytaxtındakı görüşdən bir gün əvvəl növbəti təxribata əl atdı; **politoloq:** "Növbəti görüşdə də Paşinyan belə bir niyyət güdərsə, artıq Azərbaycan başqa variantlara əl atmalı olacaq"

Bundan əvvəl onlar Davos Forumu çərçivəsində bir araya gələrək Qarabağ ətrafında müzakirələr aparmışdılar. Avstriya prezidentinin mətbuat xidməti də martın 29-da bu ölkənin prezidenti Alexander Van der Bellenin Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla ayrı-ayrılıqda görüşəcəyi barədə məlumat yayıb. İndiyədək verilən açıqlamalarda Vyana görüşündə konkret hansı məsələlərin müzakirə olunacağı barədə detallı məlumata rast gəlinməyib. Ancaq xüsusilə Ermənistanda yaxşı anlayırlar ki, budəfəki görüşdə hansısa pozitiv nəticə əldə olunmasa, o halda münaqişə bölgəsində vəziyyət kritikləşə bilər. Elə bir sıra müşahidəçilər Vyana görüşü ərəfəsində Ermənistan Müdafiə Nazirliyində komandanlığın toplantısını və bunun ardınca N.Paşinyanın iştirakı ilə erməni generallarının qapalı müzakirələrini təsadüfi saymır. Hesab olunur ki, bu, Ermənistan ordusunun fors-major hadisələrə hazırlıq məqsədi daşıyıb. Avstriya paytaxtında baş tutacaq ikitərəfli görüşdən öncə təmas xəttində təxribata əl atılması və Azərbaycan ordusunun əsgərinin şəhid olması faktına hələlik Minsk Qrupu həmsədrlərindən hər hansı reaksiya gəlməyib. Görünür, elə bu səbəbdəndir ki, işğalçı ölkə şirniklənərək daha bir özbaşınalığa qərar verib. Belə ki, liderlərin görüşündən bir gün əvvəl - martın 28-də Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarında hərbi təlimlər keçirib (ONA). Məlumata görə, qoşunların təmas xəttinin Ağdam istiqamətində keçirilən təlimlərdə zirehli texnika və artilleriya qurğularından istifadə edilib. Hazırda erməni ordusunun təlimi atışlarının səsi cəbhəyanı ərazilərdə aydın eşidilib. Bu faktın özü İrəvanın sülh danışıqlarını pozmaq və status-kvonu saxlamaq cəhdindən xəbər verir. Ermənistan rəhbərliyi fakt qarşısında qaldığını və Vyanada onu çətin görüş gözlədiyini yaxşı anlaşdığı üçün vəziyyəti gərginləşdirir. Xatırladaq ki, hətta erməni ekspertlər N.Paşinyanın İ.Əliyev qarşısında çox zəif olduğunu dönə-dönə deyiblər. Ancaq işğalçı ölkə bununla həm də "güc nümayişi"ni də sərgiləməyə cəhd edir.

Düşmənin davranışları təbiidir, ondan normal addım gözləməyə dəyməz. Sadəcə, illərdir vasitəçilik missiyasını üzərinə götürən paytaxtların Ermənistanın bu özbaşınalığına seyrçi qalması təəssüf doğurur. Nə ATƏT həmsədrləri, nə də ATƏT-in bölgədəki "canişini" Anjey Kasprşikdən hər hansı reaksiya gəldi. Hansı ki, ötən ilin mayında həmsədrlər Azərbaycanı öz ərazisində işğalçıya cavab atəşi açdığına görə ayrıca bəyanatla "suçlu" çıxartmağa çalışmışdı.

Digər təəccüblü məqam isə budur ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 28-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində monitorinq keçirib. Məlumatda deyilir ki, monitorinq insidentsiz başa çatıb. Təsəvvür edin, ATƏT cəbhənin bir istiqamətində monitorinq keçirir, digər tərəfdə isə Ermənistan ordusu hərbi təlimlər keçirir, beynəlxalq təşkilat isə bu cür özbaşınalığın üstünü belə vurmur.

Azərbaycan prezidenti ilə Ermənistan baş naziri arasında Düşənbədə keçirilən qeyri-rəsmi görüşdə atəşkəsin qorunub-saxlanması barədə razılaşma əldə olunmuşdu. 2018-ci il dekabrın 6-da isə Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi sammiti çərçivəsində prezident İlham Əliyev və Nikol Paşinyan arasında qısa söhbət olmuşdu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparılmışdı. Bundan sonra iki ölkənin xarici işlər nazirləri 2018-ci il dekabrın 5-də ATƏT Xarici İşlər Nazirləri Şurasının Milanda keçirilən iclası çərçivəsində görüşdü. 2019-cu il yanvarın 16-da Parisdə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında növbəti görüş oldu. Nazirlərin Paris görüşündə isə xalqların sülhə hazırlanması barədə anlaşma əldə olunduğu barədə xəbər yayıldı. Lakin əldə olunan razılaşmanı pozan tərəf isə həmişəki kimi Ermənistan tərəfi oldu. İşğalçı ölkənin hakimiyyəti və cəmiyyəti "ölərik, Qarabağı qaytarmarıq" yanaşmasını sərgiləməklə beynəlxalq hüquqa meydan oxumaqdadırlar. Bu isə növbəti dağıdıcı savaş riskinə meydan açır.

Beləliklə, uzun fasilədən sonra iki dövlət liderləri arasında rəsmi görüşün reallaşması nəzərdə tutulur. Xatırladaq ki, 2016-cı il aprelin 2-dən 5-dək baş verən hərbi toqquşmalar da eks-prezident Serj Sərkisyanın qeyri-konstruktiv mövqeyi və işğalçı ölkənin davamlı təxribatları nəticəsində baş vermişdi. O zaman Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan hərbi əməliyyatları dayandırdı. Lakin beynəlxalq aləm dərk etdi ki, hazırkı status-kvonun qəbuledilməzdir və nizamlanma istiqamətində təcili addımlara ehtiyac var. Uzun fasilədən sonra iki dövlət liderinin nəzərdə tutulan görüşü ərəfəsində işğalçı tərəfin təxribatları onu təsdiqləyir ki, İrəvan mövcud vəziyyətin əbədi davam etməsində maraqlıdır. Azərbaycan isə şübhəsiz ki, nə hərb, nə sülh variantını qəbuledilməz sayır və torpaqlarının ilhaqı ilə barışmaq niyyətində deyil.

Bu arada məlum olub ki, Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyan martın 22-də Moskvaya etdiyi gizli səfəri zamanı ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədri İqor Popovla da görüşüb. Axar.az xəbər verir ki, bu məlumatı "168 Jam" qəzeti yayıb. Qeyd edək ki, bundan öncə Mnatsakanyan Moskvaya gizli səfər etdiyi haqqında məlumat yayılıb. Səfər zamanı Mnatsakanyan Rusiya Xarici İşlər naziri Sergey Lavrovla görüşüb. Ermənistan tərəfi hələlik səfərin baş tutub-tutmamasına tam aydınlıq gətirməyib. Mnatsakanyan martın 22-də İrəvanda olmadığını desə də, mətbuatı konspirologiya da ittiham edib.

Media Mnatsakanyanın Moskvaya Əliyevlə-Paşinyan görüşündən cəmi 1 həftə öncə səfər etməsinə və bu barədə ictimaiyyətə heç bir açıqlama verilməməsinə diqqət çəkib. Bəzi ekspertlər Ermənistan XİN başçısının Vyana görüşü ərəfəsində Moskvadan təlimat aldığını güman edir.

Düşmənin son təxribatlarından bəhs edən politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, atəşkəs heç də sülh demək deyil və ermənilər bundan öz xeyirlərinə daima istifadə etməklə təxribatlar törədiblər: "Sonuncu təxribatlar da buna əyani bir misaldır. Bu hadisələr də göstərir ki, artıq bütün məsuliyyət Ermənistanın üzərində qalacaq. Bu, həm də Paşinyanın istər istəməyərəkdən, istərsə də qəsdən atəşkəsi pozdurması və ya silahlı qüvvələrə nəzarəti itirməsi kimi qiymətləndirilməlidir".

**Vyanada keçiriləcək görüşdən gözləntilərinə gəldikdə, A.Nağıyev xatırlatdı ki, son aylarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində 4, dövlət rəhbərləri səviyyəsində qeyri-rəsmi 3 görüş baş tutub:** "Bu görüşlər əsasən münaqişə tərəflərinin sülh danışıqlarına münasibəti və mövqelərin araşdırılması istiqamətində idi və konkret olaraq məsələnin həlli öz əksini tapmadı. Paşinyan qeyri-adekvat çıxışları ilə separatçı qüvvələri üçüncü bir subyekt kimi danışıqlara cəlb etməyə cəhdləri ilə sülh prosesini ləngidib. Lakin qarşıdan aprel ayı gəlir və hakimiyyətinin bir illiyik hesabatını vermək iqtidarında olmaq üçün Qarabağla bağlı addımlar atmalıdır. Buna görə də mütləq şəkildə ya danışıqlara getməli, ya da tam imtina etdiyini bəyanlamalıdır. İkincini edə bilməz, çünki onun siyasətində əsas kartlardan biridir və ümumiyyətlə, ATƏT və ya dünya birliyi buna imkan verməz. Əks halda, sanksiyalar və digər təzyiqlərlə üzləşə bilər".

**Politoloq qeyd etdi ki, Azərbaycan məsələnin hərbi yolla həllini də bir variant olaraq gündəmdə saxlayır və bu, indiki reallıqda tamamilə mümkündür:** "Azərbaycan bu variantı 2016-cı ildə sınaqdan keçirib və ölkəmizə hər hansı bir beynəlxalq qurumlar və ya dövlətlər tərəfindən irad tutulmayıb. Təbii ki, növbəti görüşdə də Paşinyan belə bir niyyət güdərsə, artıq Azərbaycan başqa variantlara əl atmalı olacaq və bu, gözləniləndir".

**"Paşinyan bir müddət ölkə daxilində və beynəlxalq arenada uğurla "oynadı", amma indi onun erməni xalqına istədiyi "çörəyi" vermək imkanı yoxdur. Buna görə də heç kim ona kömək etmək istəmir". Bu sözləri Axar.az-a açıqlamasında rusiyalı politoloq Oleq Kuznetsov prezident İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın Vyana görüşü haqda danışarkən deyib. Politoloq bildirib ki, Paşinyan iki seçim arasında qalıb. Kuznetsov qeyd edib ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həllində şahmat dilində desək, suqsvanq vəziyyətindədir və hər bir hərəkəti onun mövqeyini pisləşdirir:** "Mən onun bunu yaxşı dərk etdiyindən əminəm, buna görə də "Azərbaycan xalqı ilə sülhə dair birbaşa söhbət" kimi tamamilə çılpaq fikirlər irəli sürür. Paşinyan hazırda həm daxili, həm də xarici siyasətdə çarəsizdir. Buna oxşar bir şey 100 il bundan əvvəl - 1918-ci ilin fevral-mart aylarında Brest-Litovskda bolşeviklərin döyüşçü müxalifətlə apardığı ayrı-ayrı müzakirələr zamanı baş verib. O vaxt Sovet Rusiyasının nümayəndə heyətinin rəhbəri də "nə müharibə, nə sülh" tezisini irəli sürmüşdü, bunun nəylə sonlandığı məlumdur: Alman əsgərləri hücuma keçdi, Gürcüstana gəlib çatdılar. Bundan sonra bolşeviklər özləri üçün tamamilə əlverişsiz şəraitdə sülh müqaviləsi imzaladılar. Mən qorxuram ki, martın 29-da Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün gedişində və nəticələrində bənzər bir şey görəcəyik".

Ümumiləşdirsək, prezident İlham Əliyevlə görüşdə Nikol Paşinyanı çətin imtahan gözləyir. Ötən ilin mayından etibarən Ermənistan hökumətinə rəhbərlik edən Paşinyan danışıqların formatının dəyişdirilməsi və Qarabağ separatçılarının prosesə qoşulması üçün çox çalışdı, lakin məqsədinə nail ola bilmədi. İndi o, ənənəvi formatda iştirak etmək məcburiyyəti qarşısındadır və uğursuzluğunu ört-basdır etməkdən ötrü daxili auditoriyaya hesablanan müxtəlif radikal bəyanatlar verir. Görək, Vyana görüşündən sonra nə deyəcək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun adı yenidən gündəmə qayıdıb. Bu dəfə də sabiq nazirin ismi bütün ölkə gündəmini zəbt edən yanğına qarışıb. Bakının Nizami rayonunda yerləşən "Diqlas" Ticarət Mərkəzi bir anın içində yanaraq külə dönüb. Eynən 2015-ci ilin mayında Binəqədidəki binanın yanmasında olduğu kimi, hazırda da Eldar Mahmudovun adı "Diqlas"dakı yanğınla qoşa çəkilir. Mərkəzin Eldar Mahmudovun oğlu, "Caspian Crystal" holdinqin sahibi Anar Mahmudova məxsusluğu haqda təkzib edilməyən məlumatlar var.**



# Eldar Mahmudovun adı keçən müəmmalı yanğınlar-təfərrüat

## 2015-ci ildən bu yana sabiq nazirin ismi Bakını bürüyən tüstüyə qarışır...

2015-ci ildə, hələ Eldar Mahmudov milli təhlükəsizlik naziri postunu tutduğu günlərdə oxşar yanğın hadisəsi Bakının Binəqədi rayonunda yerləşən çoxmərtəbəli yaşayış binasında meydana gəlmişdi. Bu olayda Mahmudovun izinin olması haqda iddialar yayılmışdı. Belə xəbərlər vardı ki, bina qəsdən yandırılıb. Maraqlıdır ki, həmin günlərdə də ölkə böyük bir idman yarışına ev sahibliyi etməyə hazırlaşırdı və belə həssas vaxtda binanın yandırılması təxribat kimi qiymətləndirilirdi. Hazırda da ölkə böyük dəyişikliklər ərəfəsindədir. Hər kəsin ölkə rəhbərliyinin atılan addımlarından gözləntiləri var. Belə bir vaxtda Bakının məşhur ticarət mərkəzi yanıb külə dönür! Və 2015-ci ildə olduğu kimi Eldar Mahmudovun adı yanan ticarət mərkəzinin şahə qalxan tustüsünə qarışır. Təsadüfdürmü?

Ona görə də 2 dəhşətli yanğın arasında paralel aparmaq cəhdləri nəzərə çarpır.

**2015-ci ildə yanğından dərhal sonra Eldar Mahmudovun göstərişi ilə "Global Construction" və "Global Stone" MMC-yə basqın etmişdilər. Sonradan "yanan bina" işi üzrə həbs edilən MMC-nin təsisçisi Miryusif Mahmudov məhkəmədə "o binanı yandırıblar" şəklində şok ifadə verdi.**

**Dedi ki, hələ yanğından əvvəl Eldar Mahmudovun adamları ilə üz-üzə gəlməli olub.**

"Mən yanğın yerində olanda dedilər ki, "qonaq"lar gəlib, ofisdə səni gözləyirlər. Yeddi-səkkiz qara maşın, 17-18 adam gəlmişdi. Elə bil bin Ladenlə qohumluğum vardı, qatı cinayətkar götürməyə gəlmişdilər. Yanğınsöndürənlər hadisə yerinə yenicə çatanda artıq bizim ofisdə əməliyyat tədbirləri keçirilməsi maraqlıdır. Ofisdə telefon xətləri kəsilmişdi, sənədlər kisələrə doldurulmuşdu. Axı hansı əsasla? Çox dəhşətli səhnə idi. Buna 50 nəfər şahiddir. Bu binanın yandırılması üçün uzun aylar hazırlıq işləri görülüb. Əvvəlcə 2015-ci il aprelin 10-da Xətaidəki bina yandırılıb. "Poliuretan" bütün Azərbaycanda qulaqlara dəhşətli söz kimi otuzduruldu, zəhər kimi təqdim olundu. Bu hadisədən 15 gün sonra Veteranlar Şurasının binası yandırıldı. Bundan 3 gün sonra da Azadlıq prospektindəki bu binanı yandırdılar".

**Miryusif Mahmudov məhkəmədə hakimin diqqətinə çatdırmışdı ki, yanğından əvvəl şirkətin əməkdaşlarından biri MTN-ə çağırılıb, onlardan pul tələb olunub:** "...Yanğından sonra da bu işi MTN özü aparmaq istəyirdi. MTN-də məndən ifadə aldılar. Hanı o ifadə? Yoxdur. Belə getmək olmaz. Bu, göz görə-görə hazırlanmış hadisədir".

Bir maraqlı məqam da var: Binəqədidəki yanğından 7 ay əvvəl - 2014-cü il noyabrın 26-da gecəyarısı Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində yerləşən, əsasən sələfilərin toplaşdığı məscidə içi yandırıcı maddə ilə dolu 5-6 yarımlitrlik butulka atılıb. "Molotov kokteyl"ləri məsciddə yanğına səbəb olsa da, məscid nəzarətçisinin alov dillərini vaxtında görərək yanğınsöndürənlərə məlumat verdiyinə görə geniş miqyas almamışdı. Bundan 3 gün əvvəl - 2015-ci il mayın 16-da isə Bakının Nərimanov rayonu, Koveroçkin küçəsində, Hərbi Prokurorluğun binası ilə üz-üzə olan çoxmərtəbəli binanın damına çıxan naməlum şəxslər kəndirləri neftə batıraraq yandırıblar və binanın damından üzü aşağı buraxıblar. Gecəyarısı binanın damına doğru alov dillərinin qalxması yaxınlıqdakı taksi sürücülərinin diqqətini cəlb edib. FHN-ə vaxtında məlumat verilməsi səbəbindən bu xain cəhd də baş tutmayıb. Məscidin, yaşayış binasının qəsdən yandırılmasına cəhdlərdən 3 gün sonra - 2015-ci il mayın 19-da Binəqədidəki binada yanğın gecə yarısı deyil, günortaya yaxın baş verib. Çünki alov axşam, hava qaralandan sonra daha çox görünür. Günorta isə diqqəti daha az çəkir. Bu səbəbdən də Binəqədidəki binada Qaraçuxurdakı məsciddə, Koveroçkin küçəsindəki binada olduğu kimi yanğını vaxtında görüb, qarşısını ala bilməyiblər. Dəhşətli yanğından sonra Gəncədə gecəyarısı çoxmərtəbəli binalardan birinin damında əllərində dizel yanacağı ilə dolu iki şəxs saxlanılıb. Həmin şəxsləri binaların sakinləri tutaraq polisə təhvil versələr də, sonradan MTN həmin şəxsləri polisdən alıb və onların izi itirilib. Bilinən odur ki, bu şəxslərdən biri Dağıstan vətəndaşı, digəri isə Samuxdan olub. 2015-ci ilin iyununda isə Qaraçuxurda binaların önündə park olunmuş, vətəndaşlara məxsus 30-a yaxın lüks avtomobilə od vurulub. Bu məlum olan, 2015-ci ilə təsadüf edən qəsdən törədilən, təxribat olmasını söyləməyə əsas verən yanğın faktlarıdır.

Hazırda da oxşar gedişat müşahidə edilir.

"Diqlas"dakı yanğından əvvəl də Bakının müxtəlif ərazilərindən həyəcanlı yanğın xəbərləri gəlirdi.

Məsələn, martın 2-də Bakıda "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər Futbol Məktəbində yanğın baş verdi. Sonradan Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumatdan belə aydın olurdu ki, Binəqədi rayonunda futbol məktəbində yanğın idman zalının dam örtüyündə meydana gəlib. Xoşbəxtlikdən hadisə zamanı xəsarət alan olmamışdı. Binanın damında yanğının səbəbi bilinmədi. Martın 5-də Bakının mərkəzi rayonlarından olan Nərimanov rayonunda insan tələfatı ilə nəticələnən olay meydana gəlib. Rayonun Malik Məmmədov küçəsi, 12 ünvanında yerləşən 5 mərtəbəli yataqxanada gecə saatlarında yanğın başlayıb. Yanğın məcburi köçkünlərin məskunlaşdığı yataqxananın 3-cü mərtəbəsində olub. Hadisə nəticəsində Elza və Surxay Əliyevlər həyatlarını itirib. 6 nəfər isə xəsarət alıb, tüstüdən zəhərlənib. Tüstüdən zəhərlənənlər arasında Nərimanov Rayon Polis İdarəsinin rəis müavini Habil Sadıqov da olub.

Martın 26-da "Diqlas" Ticarət Mərkəzinin çölündəki dönər köşkündə səhər tezdən meydana gələn balaca bir yanğın böyük bir alova çevrildi. Hadisə yerinə 2015-ci ilin mayında olduğu kimi Bakının əksər rayonlarının yanğınsöndürmə briqadaları, yanğınsğöndürən vertalyotlar qaldırılsa da, xeyri olmadı. "Diqlas" Ticarət Mərkəzi kibrit qutusu kimi külə döndü. Yenə də yanğının sürətlə yayılmasının səbəbi binanın üzlük materialı ilə əlaqələndirildi.

Martın 27-də Xəzər rayonunda da 5 mərtəbəli yaşayış binasında yanğın olub. Bu dəfə də yanğın binanın 5-ci mərtəbəsində, damda meydana gəlib. Binanın çardağında istifadəsiz ev əşyaları və taxta tullantıları 10 $m^2$ sahədə yanıb. Yanğın zamanı 15 nəfər bina sakini yanğınsöndürənlər tərəfindən təhlükəsiz əraziyə təxliyə olunub. Bina və mənzillər yanğından mühafizə olunub. Damda yanğının səbəbi haqda məlumat yoxdur.

Bəlkə də 2019-cu ilin ilk günlərindən baş verən yanğınlar təsadüfi olaraq belə bir təəssürat yaradır. Mümkündür ki, "Diqlas"da baş vermiş yanğın bundan əvvəl və sonra baş verən yanğınlarla eyni zəncirin halqaları deyil. Amma bütün ehtimalların araşdırılması zərurəti ortalıqdadır.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Bir daha Müşfiqin qaranlıq taleyi haqda: divara hörülüb, yoxsa...

## Ədalət Tahirzadə: "O adamın yanlış söz deyəcəyinə qətiyyən inanmıram"

**Mərhum şair Mikayıl Müşfiqə aid olduğu iddia edilən sümük qalıqları ətrafında müayinələr hələ də davam edir. Xatırladaq ki, ötən il şairə aid olduğu iddia edilən qalıqların Qaradağ rayonu ərazisində vaxtilə "NKVD" qəbiristanlığında aşkarlandığı deyilirdi. Mətbuatda yayılan informasiyaların ardınca ölkə prezidenti İlham Əliyev Stalin repressiyasının qurbanı olmuş, 1937-ci ildə güllələnmiş şairin qalıqlarının tapılması haqqında Azərbaycan Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş vermişdi. Bununla bağlı ötən il noyabrın 1-də işçi qrupunun Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında ilk iclası da keçirilmişdi. Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyindən də mətbuata açıqlama verilərək bildirilmişdi ki, tezliklə müayinələr aparılaraq, araşdırmalara yekun vurulacaq. Lakin aylar keçsə də Mikayıl Müşfiqin qalıqları barədə araşdırmalardan səs-soraq çıxmadı.**

***Bəs səbəb nədir?***

**Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov** ötən gün məsələ ilə bağlı mətbuata açıqlama verib. O, işlərin hansı səbəbdən yekunlaşmamasına bu cür aydınlıq gətirib:

"Düzdür, bir neçə müddət bundan əvvəl işlərin yekunlaşacağını demişdik. Ona görə ki, bizə bir sümük təqdim olunmuşdu. Bir sümüyün yekunlaşması bir, ya da iki həftəyə başa gəlir. Biz də buna uyğun cavab vermişdik. Lakin birdən proses dəyişdi. Bizə başqa materiallar təqdim olundu. Sümüklərin ardı



gəlməyə başladı. Hətta növbədə bir partiya sümük də gəlməsi gözlənilir. Bu, qlobal məsələdir. Bir nəfərdən söhbət getmir. Çünki aşkarlanan ərazidə təkcə Mikayıl Müşfiqə aid edilən sümüklər deyil. Ekspertizanın miqyası da böyükdür. Eyni zamanda qohumlar gəlib qan verirlər və biz də bunu yoxlayırıq".

**Birliyin direktoru işlərin uzanması ilə bağlı xaricdən mütəxəssis gətirilməsinə ehtiyac qalmadığını bildirib:** "Heç bir xarici mütəxəssisə ehtiyac yoxdur. Çünki bu, genetik ekspertizadır. Genetik ekspertizanı həyata keçirən aparatların hamısı özümüzdə var".

Qeyd edək ki, məsələnin qızışdığı bir arada tədqiqatçı alim Ədalət Tahirzadə Mikayıl Müşfiqin qalıqları olduğu barədə məlumatlara inanmadığını, onun divara diri-diri hörüldüyünü iddia etmişdi. Alim həmin divarın ünvanını da göstərmişdi - Azərbaycanın o zamankı rəhbəri Mircəfər Bağırovun yaşadığı, indi isə İncəsənət Muzeyi yerləşən bina.

**"Mən hələ də bu iddiamda qalıram". Bu sözləri alim Ədalət Tahirzadə məsələ ilə bağlı "Yeni Müsavat"a danışarkən bildirib. Tədqiqatçı qeyd edib ki, şairlə bağlı bu iddianın olmasına baxmayaraq, rəsmi qurumlar məsələni araşdırmağa cəhd göstərmir:** "Dediyim iddia heç də "havadan" deyil. Açıq şəkildə bu barədə dövlət orqanlarına müraciət etdim, onun yalan və yaxud doğru olub-olmadığının araşdırılmasını təklif etdim. Lakin heç bir qurum bu məlumatla bağlı maraqlanmadı. Bir daha qeyd edirəm, Müşfiqin divara hörülməsi barədə çox ciddi bir adamdan məlumat almışdım. Və o adamın yanlış bir söz deyəcəyinə də qətiyyən inanmıram. Məlum olduğu kimi, bu gün divara toxunmadan, yeni texniki avadanlıqlarla hər şeyi ayırd etmək mümkündür. Biz də istəyirik ki, araşdırıb, bizə dəqiq məlumat bildirsinlər".

Xatırladaq ki, Mikayıl Müşfiqə 1937-ci il iyul ayının 5-də SSRİ Ali Məhkəməsinin 20 dəqiqəlik məhkəmə iclasının qərarı ilə güllələnmə hökmü verilib. Hökm 1939-cu il martın 12-də Nargin adasında yerinə yetirilib. Bəzi iddialara görə, şair güllələndikdən sonra Xəzər dənizinə atılıb. Digər iddialara görə isə onun cəsədi kimsəsizlər qəbiristanlığında dəfn olunub.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

**Ötən həftə dünya neft bazarında müşahidə edilən ucuzlaşma yenidən artımla əvəz olunub. Artıq neftin bir barelinin orta satış qiyməti 67-68 dollar aralığında dəyişir.**




# “Yaxın dövrdə neftin qiymət 70 dollar civarında olacaq”-ekspert

## Neftin dünya bazarındakı hazırkı qiyməti ABŞ-ı qane edir

Bazara təsir edən amillər arasında ABŞ-ın neft və neft məhsulları ehtiyatlarına dair martın 27-də açıqlanan məlumatlar xüsusi yer tutur. Belə ki, ötən həftənin yekunlarına görə, ABŞ-da neft ehtiyatları gözləniləndən daha çox artıb ki, bu da dünya neft bazarına öz təsirini göstərə bilər. ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Agentliyinin (EIA) dərc etdiyi hesabata əsasən, ötən həftə ABŞ-ın xam neft ehtiyatları 1,9 milyon barel artıb. Halbuki analitiklər neft ehtiyatlarının 1,2 milyon barel azalacağını proqnozlaşdırırdı.

Agentliyin məlumatına görə, neft ehtiyatlarından fərqli olaraq, ABŞ-ın benzin ehtiyatlarında azalma qeydə alınıb. Belə ki, benzin ehtiyatları 4,28 milyon barel azalıb. Beləliklə, ABŞ neft ehtiyatlarının artmasından dolayı bazarda yarana biləcək neqativ proses benzin ehtiyatının azalması xəbəri fonunda neytrallaşmış oldu.

OPEK və dünya neft bazarının əsas oyunçularından olan Səudiyyə Ərəbistanı hazırkı qiymət səviyyəsindən heç də razı deyil. Belə ki, Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, 2019-cu ilin büdcəsini kəsirsiz icra etmək üçün Ər-Riyad nefti 80-85 dollara satmalıdır. Bu baxımdan, Səudiyyə Ərəbistanı dünya bazarında qiymətlərin yüksəlməsinin tərəfdarıdır. OPEK+ çərçivəsində hasilatın azaldılması sazişinin müddətinin uzadılması üçün Səudiyyə Ərəbistanının göstərdiyi cabaların da bununla bağlı olduğu hesab edilir. Bu məsələdə hətta Ər-Riyad azalan hasilatın yerini ABŞ neftinin tutmasına belə göz yummağa hazırdır. Hasilatın azaldılmasına dair OPEK+ sazişinin ikinci əsas tərəfi olan Rusiya isə dünya neft bazarında ABŞ-ın payının sürətlə artmasından daha çox narahatdır, nəinki neftin qiymətinin azalması ehtimalından.

Qeyd edək ki, neftin dünya bazarındakı hazırkı qiyməti ABŞ-ı da qane edir. Belə ki, fevralın sonunda OPEK-ə tvit atan prezident Donald Tramp qurumu həmin vaxt mövcud olan 66-67 dollarlıq qiymət həddində dayanmağa səsləmişdi. Baxmayaraq ki, ABŞ-da neft hasilatı sürətlə artır, neft emalı üzrə dünya birincisi olan bu ölkəyə indiki səviyyədən daha yüksək qiymətlər qətiyyən sərf etmir.

İrana qarşı ABŞ sanksiyaları bazarı qızışdıran zaman - ötən ilin oktyabr-noyabrında Tramp 8 ölkəyə Tehrandan neft almaq üçün güzəşt tətbiq etməklə qiymətlərin kəskin enməsinə nail oldu. Amma bu güzəştin müddəti may ayında bitir. Bu isə İrandan neft alan ölkələrin bazarda tələbi artıracağı deməkdir. Tələbin artması isə qiymətlərə yüksələn istiqamətdə təsir göstərən əsas amillərdən biridir.

Digər tərəfdən, Venesueladа neft hasilatını kəskin azaldan siyasi böhran davam etməkdədir. Bu ölkədə faktiki mövcud olan ikihakimiyyətliliyin başa çatacağı tarixlə bağlı proqnozlaşdırma aparmaq mümkün deyil.

**İqtisadçı-ekspert Pərviz Heydərovun fikrincə, İrana qarşı sanksiyalarda güzəştin ləğvinin qiyməti artırma effekti dünyanın əsas iqtisadiyyatlarında artım tempinin zəifələməsi nəticəsində gözlənildiyindən daha az olacaq:** “Son aylarda Avropa Birliyi, Çin və ABŞ kimi böyük iqtisadiyyatlarda artım templərində azalma qeydə alınır. Bu isə neftə tələbatın azalacağı deməkdir. Daha bir amil ABŞ dollarının məzənnəsidir. ABŞ Federal Ehtiyatlar Sistemi (FED) bu günlərdə uçot dərəcəsini sabit saxlamaq qərarı verdi. Bu isə neftin qiymətini artıran amillərdən biridir. Çünki adətən dolların məzənnəsi artanda dünya neft bazarında qiymətlər azalır, dolların məzənnəsi azalanda isə artır”.

**Ekspert bildirir ki, bu gün dünya neft bazarında rəqabət həddindən artıq kəskinləşib:** “Əvvəllər beləydi ki, bazarda qiymətləri ABŞ OPEK vasitəsilə diqtə edirdi. İndi isə vəziyyət dəyişib, OPEK-lə ABŞ-ın qiymətə münasibətdə yanaşmaları kəskin fərqlənir. Hətta bir çox məqamlarda OPEK ABŞ-ın mövqeyinə qarşı gedir. Bu da 2014-cü ildən başlayan ucuzlaşmadan sonra müşahidə edilir. Hansı ki, bu ucuzlaşmadan OPEK-ə üzv olan ölkələr böyük zərərlə üzləşdilər. Azərbaycan kimi kiçik hasilatçı ölkə 11 milyard dollar valyuta ehtiyatını itirdi. OPEK-in faktiki rəhbəri olan Səudiyyə Ərəbistanı isə yüz milyardlarla dollar zərər çəkdi. Bu baxımdan, ABŞ-ın qiymətlərin azaldılması tələblərini Səudiyyə getdikcə daha çox qulaqardına vurur. Eyni zamanda Rusiyanın da bazara təsir imkanları getdikcə artır. Yeni faktiki olaraq dünya neft bazarında qiymətlərə təsir edən güclər artır, bu isə rəqabəti gücləndirir. Başqa tərəfdən, bir çox siyasi proseslər də qiymətlərə təsir göstərmək gücündədir”.

**P.Heydərov qeyd edir ki, hazırda dünya bazarında qiymətlərə təsir edən amillər yaxınmüddətli dövrdə bir barelin 60-70 dollar civarında dəyişməsinə səbəb olacaq:** “Yeni ciddi siyasi amillər meydana çıxmazsa, yaxınmüddətli dövrdə bazarda kəskin qiymət dəyişikliyi gözlənilmir. Uzunmüddətli dövrdə isə dünya iqtisadiyyatının artım səviyyəsi, yeni tələbat qiymət dəyişmələrində əsas rol oynayan amillərdən biri olaraq qalacaq. Bazarda tələbi azalda biləcək daha bir amil qiymətin 80 dollar və yuxarı həddə çatması ola bilər, amma hazırkı şərtlər daxilində bu, real deyil. Amma bunu tamamilə istisna etmək də olmaz, çünki nef bazarına təsir göstərəcək siyasi hadisələr baş verə bilər”.

**Neft hasilatçısı olan Azərbaycan üçün mövcud qiymətlər əlverişlidir:** “Hazırkı qiymətlər Azərbaycanın valyuta ehtiyatlarının artmasına, büdcə proqnozlarına tam əməl edilməsinə şərait yaradır. Hazırda ölkənin tədiyə balansı müsbətdir, valyuta bazarında tam sabitlikdir. Qiymətlərin bu həddə qalması makroiqtisadi sabitliyin də davamlı olması deməkdir”.

Yeri gəlmişkən, Azərbaycan neftinin bahalaşması davam edir. Belə ki, martın 28-i vəziyyətinə Azərbaycan neftinin qiyməti 0,08 ABŞ dolları bahalaşaraq 69,46 dollara bərabər olub.

Cari il ərzində Azərbaycanda maye karbohidrogenlərin (neft və kondensat) gündəlik istehsalı 2018-ci ilə nisbətdə 0,01 milyon barel azalma ehtimalı ilə 0,80 milyon barel olacağı proqnozlaşdırılır. Bu barədə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) mart ayı üzrə dərc etdiyi hesabatında bildirilir. Hesabata görə, 2018-ci ildə Azərbaycanda gündəlik maye karbohidrogen istehsalı 0,80 milyon barel səviyyəsində olub. Cari ilin yanvarında istehsal təxminən 0,81 milyon barelə qədər artıb. Ümumi istehsaldan 0,71 milyon barel neft, 0,10 milyon barel isə qaz kondensatının payına düşüb.

“Şahdəniz” yatağında kondensat hasilatının artımı “Azəri-Çıraq-Günəşli” (AÇG) neft-qaz blokunda neft hasilatının azalmasını kompensasiya edir. Bununla belə, 2019-cu ildə AÇG-də iki platformada texniki xidmət işlərinin aparılması ehtimalı ilə əlaqədar istehsalda ciddi azalma gözlənilir (ONA).

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Hökumət boşanmalara qarşı hərəkətə keçdi - yeni qanun

## “Mediasiya haqqında” Qanun ailələrin dağılmasının qarşısını ala biləcəkmi?

**Azərbaycanda ailə, əmlak, əmək və iqtisadi münasibətlərlə bağlı yaranmış mübahisələrin həll edilməsi üçün yeni tələbin qoyulması təklif olunur. Bu məsələ yeni hazırlanan “Mediasiya haqqında” Qanunda öz əksini tapıb. Qanun layihəsinə əsasən, tərəflər iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməzdən əvvəl ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. İlkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparacaq.**

Layihədə qeyd edilir ki, ailə münasibətlərindən irəli gələn bir sıra məsələlər - nikahın davam etdirilməsi şərtləri, valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası, uşağın yaşayış yerinin müəyyən edilməsi, uşağın və əmək qabiliyyətli olmayan digər ailə üzvlərinin saxlanılması qaydası, ailə münasibətlərindən irəli gələn digər mübahisələr mediasiya vasitəsilə həll edilə bilər.

Tərəflər uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməyə borcludurlar.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri, hüquq üzrə fəlsəfə doktoru Elgün Səfərov “Trend”ə açıqlamasında bildirib ki, xarici ölkələrin təcrübəsinə əsasən effektiv mediasiya mexanizmi boşanma hallarını üçdə bir faiz azalda bilər. Onun sözlərinə görə, mediasiya mexanizmi daha çox psixoloji problemləri olan, məişət zorakılığına məruz qalan aztəminatlı ailələrdə boşanma hallarının azalmasına səbəb ola bilər.

Komitə sədrinin fikrincə, mediasiya boşanmaların etik davranış qaydaları çərçivəsində, uşağa zərər vurmadan həyata keçirilməsinə də imkan verər.

Qeyd edək ki, son illərdə



Azərbaycanda boşanmaların sayında kəskin artım müşahidə olunmaqdadır. Statistik məlumatlara görə, 2005-2017-ci illər ərzində məhkəmələrdə ailə münasibətləri üzrə mübahisələrlə bağlı baxılmış mülki işlərin sayı təxminən 3 dəfə artıb. Mütəxəssislər də bildirir ki, yeni təklif olunan layihə həqiqətən bu artımın qarşısını ala bilər.

**“Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova “Yeni Müsavat”a açıqlama verərək bildirib ki, artıq bu cür sessiya mövcuddur:** “3 il bundan əvvəl biz bu cür sessiya yaratmışıq. Təşkilatımızda sığınacaqdaxili də qadınlarımıza bu xidməti göstəririk.

Qeyd edim ki, bu cür layihə çox təqdirəlayiqdir. Avropa, Amerika, eləcə də Rusiyanın özündə bu cür qanun işlədilir. Qanunun vacib tərəflərindən biri də budur ki, insanlar məhkəmə prosesləri ilə münasibətləri gərginləşdirmədən məsələni sülh yolu ilə tənzimləyirlər. Yeni hər şeyə görə məhkəməyə müraciət edilməsin. Mediasiya prosesi elə bir prosesdir ki, yalnız problemin ilk və yaxud orta mərhələsində məsələni sülh yolu ilə həll etmək olur. Lakin elə bir məqamlar olur ki, orada artıq cütlüklərin bir yerdə yaşaması mümkün deyil. Yeni ciddi qərəzlilik, kəskin münasibətlər varsa, artıq neqativ hallar, hətta qətl hadisələri ola bilər. Yalnız bu prosesləri tənzimləyib, faciələrin qarşısını almaq olar. Bunu isə peşəkar mütəxəssislər edə bilər.

Beləliklə, mediasiya sessiyası ilə boşanmaların tam qarşısını almaq mümkün deyil, yalnız azaltmaq olar".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu da yeni layihənin tərəfdarı olduğunu bildirib:** “Bildiyiniz kimi, son vaxtlar boşanma halları kəskin artır. Bunun üçün də bu məsələ ilə bağlı hər hansı yenilikçi qərarların tərəfdarıyam, dəstəkləyirəm”.

**❑ Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 65 (7235) 29 mart 2019




# Danışmaq, yoxsa sükut: hansı daha bəyənilən?

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə bu mübarək ayda - Rəcəb ayında yaşamaq səadətini nəsib edib!**

Allaha həmd olsun ki, bu ayda olan nemətləri dərk etmək, bu ayın fəzilətlərini duymaq tofiqatını bizlərə inayət edib!

Uca Allahdan istəyimiz budur ki, bizim bu aylara olan mərifətimizi daha da artırsın!

### İki ay müddətində fürsət

İlk öncə bilməliyik ki, hansı aylardayıq, hansı fürsətlərin içərisindəyik, burada hansı imkanlar var, burada nələri əldə edə bilərik. Əgər bunları başa düşə bilsək, doğru yaşaya bilərik.

Rəcəb ayını sadə və qısa şəkildə izah etmək istəsək, deyə bilərik ki, bu, sözün əsil mənasında insan olmaq üçün, mənəvi təkamülü başlatmaq üçün ən münasib fürsətlərdən biridir. Rəcəb ayının artıq yarısından çoxunu əldən vermişik. Beləcə bu son günlər keçəcək, bir ay Şəban ayını adlayacağıq və artıq mübarək Ramazan ayına yetişəcəyik...

Mübarək Ramazan ayında elə gecələr var ki, onlarda min ayın təkamülünü yerinə yetirə bilərik. Amma bunu edə bilmək üçün biz gərək indidən hazırlaşaq. Sanki, bizə bir fürsət, imkan veriblər ki, əldən verdiklərimizi qaytaraq, itirdiklərimizi bərpa edək. Min ayı bir gecədə keçmək fürsəti var Ramazan ayında. Təbii ki, bu barədə həmin gecəyə yetişəndə düşünməyə başlasaq, çox çətin olar. Hətta mübarək Ramazan ayının özündən belə başlayanda, insan toparlanana qədər, bərpa olunana qədər, qaydaya düşənə qədər artıq gec olur.

Buna görə də mehriban Rəbbimiz, bu təkamülü keçməni məşq etmək üçün bizə iki aylıq bir fürsət verib. Bu iki ay ərzində tövbə etməyi, zikr deməyi, namaz qılmağı, oruc tutmağı, Quranla təması artırmağı, Allahın hüzurunda olmağı məşq edəcəyik.

İnsan adi halda özünə hesabat vermədən, başdan-ayağa qədər gündəlik qayğılar bataqlığının içərisində olur. Bütün günü iş-güc, təhsil, karyera, çalışma dalınca olur insan. Bir qədər arada fasilə edir ki, yenidən güc toparlasın və yenə də bunların ardınca getsin. Özünü tanıyan insan bu qaçaqaçı dayandıra, ayın təqdim etdiyi fürsətlərdən istifadə edərək, düşünə bilər. Düşünə bilər ki, Allah Təala onu bu bataqlıqda məhv olmaq üçün yaratmayıb. Düşünə bilər ki, o, tamamilə başqa məqsədlər üçün xəlq edilib.

### Rəcəb ayında əsas işimiz

Əllamə Cavad Amuli cənablarından soruşurlar ki, biz Rəcəb ayında ilk mühüm iş olaraq nə edə bilərik? Onun bu xüsusda bir buyuruşu var. Alim buyurur ki, biz Rəcəb ayında ilk növbədə Allahdan tutumumuzun, qabımızın, qabiliyyətimizin böyüməsini istəməliyik.

Bu, nə deməkdir? Müasir texnika bunu başa düşmək üçün insanın köməyinə çatır. Bizim telefonlarımızın proqram təminatı yenilənəndə, bir də görürsən bildiriş gəlir ki, müəyyən proqramlar üçün yerimiz çatmır. Hətta bizə tövsiyə edir ki, yaddaşda qalan nələrisə silək.

Beləcə də biz - bu bir il ərzində qəlblərimizi kiçiltmişik, daraltmışıq, genişqəlbi durumdan çıxıb, dar qəlbli bir duruma düşmüşük. Qəlbimizin qalan hissələri də lazımsız məsələlərlə dolub. Mənəviyyatımız üçün, Allah bəndəsi kimi yaşamaq üçün yer qalmayıb.

İnsan namazda qəlb hüzurunun olmamasından şikayətlənir. Təbii ki, insan qəlbində namaz üçün yer saxlamayanda, hüzuru da olmayacaq. Kinlərdə, küdurətlərdə, zarafatlarda, məsxərələrdə, intriqalarda, yersiz dedi-qodularda bulunan qəlb, artıq mübarək durum üçün yer təqdim etmək iqtidarında olmur.

Biz qəlblərimizi lazımsız və zərərli nəsnələrlə məşğul etmişik. Bu səbəbdən, nəhayət etibarilə namazda halımız olmur. Belə olanda din insan üçün aksesuarlaşır, dini məsələlər aksesuarlaşır, oruc tutmaq yalnız ac qalmaq olur, namaz qılmaz ancaq əyilib-qalxmaq olur.

Amma axı insan dinə gəlir ki, bütün bütləri qırsın, Allaha bağlansın, hürr olsun, azad olsun. Bəzənisə əks vəziyyətə salmış olur özünü. Mühüm odur ki, insan bu vəziyyətini dərk edə və Allahdan istəyə ki, onun tutumunu artırsın. Əgər tutumumuz artsa, qəlbimiz genişlənsə - ona uyğun bir şeylər istəyə bilərik.

Bundan sonra isə təmizləmək lazımdır. Tövbə etməklə qəlbimizi tam şəkildə təmizləyə bilərik. Bir xırda nöqtə də saxlamamalıyıq. Əziz Peyğəmbərimiz (s) bəyan edir ki, Rəcəb ayı - ümmətimin istiğfar ayıdır. Biz Rəcəb ayında özümüzün tam təmizlənməsi, paklanması ilə məşğul ola bilərik. Bir zərrə belə qoymayaq ki, qalsın. Bir zərrə belə sonrakı fəsadlar üçün böyük yol aça bilər.

Hazırkı dönəm elədir ki, günah insanın bir saniyəliyindədir. Əvvəllər günah dalınca getmək böyük vaxt, enerji tələb edirdi. İndi günah bir addımlığa qədər gəlib.

### Bu ayda sükut etməni öyrənək

Bu ayda başqa nə edə bilərik?

Bizlər bir ömür danışmağı öyrənirik. Uşaq dünyaya göz açır, dünyaya göz açandan uşağın reaksiyalarına baxırıq. Uşaq danışmağa başlayanda hamı sevinir. Sözlər deyir, cümlə qurur, zaman keçdikcə mücərrəd təfəkkürü inkişaf edir, fikir yürütməyə başlayır, sonra özünü ifadə edə bilir.

Bir ömür danışmağı öyrənirik. Düzgün, doğru, məzmunlu danışmağı öyrənirik. Amma bunun yanında bir mövzunu da - susmağı da öyrənməliyik. Bu mövzunu eşitməmişik. Nə bağçada, nə məktəbdə, nə universitetdə susmaq öyrədilmir. Hamı danışmağa can atır. Hamı özünün ifadəsini bu yolda görür - danışmaqda. Danışmaq tək səslə danışmaqla deyil. Bu gün status yazmağın özü də danışmaqdır.

### İslamın nəzərində danışmaq, yoxsa susmaq üstündür?

İslamın nəzərində bir insan danışsa yaxşıdır, ya sussa yaxşıdır? Həzrət İmam Səccada (ə) sual edirlər ki, danışmaq və ya susmaq - hansı daha üstündür? İmam Səccad (ə) buyurur: "Hər ikisi üçün - həm danışmaq, həm də sükut üçün təhlükələr var. Əgər hər ikisi çatışmazlıqlardan pak olsa, ikisi də ideal halda olsa - danışmaq sükutdan daha üstündür. Belə ki, Allah Təala peyğəmbərləri (s) və onların vasilərini sükutla məbus etməyib. Əslində onları danışmaq üçün məbus edib. Cənnət sükutla əldə edilmir. Allahın məhəbbəti və vilayəti sükutla əldə edilmir. Sükutla cəhənnəm atəşindən xilas olmaq olmur. Sükutla İlahi qəzəbdən qurtulmaq, amanda qalmaq olmur. Əslində bunlar hamısı danışmaqla əldə edilir".

Biz danışmaq və sükutun təbiətlərinə bir nəzər salaq. Danışmaq - bir qayda olaraq, həvayi-nəfsin mühərriki ilə işə düşür, sükut - hikmət mühərriki ilə işə düşür. Ona görə də hər danışmaq gözəl deyil. İnsanın danışması - etməyə aiddir. Etmə - istəmə müstəvisindədir. İstəmə bəzən, hətta bir çox hallarda həvayi-nəfs müstəvisindədir.

Danışmaq öz-özlüyündə olsa, düşünmə olmadan, əql olmadan işə düşsə, insan ancaq istəmə ilə hərəkət etsə, insanın danışığı bunlardan qaynaqlansa - insanı fəlakətə aparar. Əxlaq ustadları susmanı öyrənməyi deyəndə, əslində bunu nəzərdə tuturlar. Bir insan haqqı deyir, doğrunu deyir, vəzifəsidirsə - bu, tam ayrı bir mövzudur. O yerdə danışmaq hətta vacibdir. Amma biz adi bir durumdan bəhs edirik.

### Sükuta insan nələrə nail ola bilər?

Biz bir ömür danışmağı öyrənirik, amma susmağı məşq etmirik. Rəcəb ayı nəfsani danışmağı deyil, şüurla, dərklə susmağı məşq etmək ayıdır. Sükut - hikmətin əlamətidir. Sükut - təfəkkür və düşünmənin nəticəsidir. Sükut vaxtı insan daha çox təkamül edə bilir. Sükutun insanın şəxsiyyətinin formalaşmasında fövqəladə böyük rolu var. Həzrət Rəsulallah (s) cənab Əbazərə (r.ə) buyurur: "Dörd şey var ki, mömindən başqa heç kəs onu əldə edə bilməz. Biri - sükutdur ki bəndəliyin ilk addımıdır".

İradəvi, Allaha xatir sükut - bəndəliyin ilk addımıdır. Bu mövzu insanı "mənəm-mənəmlik"dən çıxarmış olar. İnsan bunu bacarmasa, çox çətindir.

Başqa bir yerdə Həzrət Peyğəmbər (s) buyurur: "Sənin üzərinə olsun çoxlu sükut etmək. Belə ki, o, şeytanın (lən) qovulmasına səbəb olar". Şeytan (lən) dedi-qodularda olur, intriqalarda olur, səs-küylərdə olur. Aramlıq vaxtı, sükut vaxtı şeytan (lən) özünü darıxmış hiss edir.

Şeytan (lən) o yerlərdə olur ki, orada həvayi-nəfsdən irəli gələn söz-söhbətlər, danışmalar olsun. İradəvi sükut - şeytanı (lən) qovmağın effektiv vasitələrindən biridir.

### Sükut - hikmət qapısının açarıdır

İmam Rza (ə) buyurur: "Sükut - hikmətin qapılarından biridir". Çox təbiidir ki, sükut insanın üzünə hikmət qapıları açar. İnsan bir şeyləri başa düşmək, dərk etmək üçün ilk növbədə sükut etməlidir. Sükut olmayan, səs-küy olan yerdə təmərküzləşmə olmur, diqqəti cəlb etmə olmur. İnsan aramlı vəziyyətində anlamalıdır ki, mövzu nədir, sonra o barədə düşünməlidir.

Bəzən şeytan (lən) insanın öz səsini özünə sevdirir, insan öz səsindən məst olur, öz danışmasından məmnun olur.

Sükut insanlararası münasibətlərdə məhəbbət yaradır. Sükut insanı bütün xeyirlərə yönəldir. Sükut insanı bərəkətlərə yönəldir. İmam Həsən (ə) buyurur: "Sükut edən insan çox heybətlidir". Sükut insana heybət, aramlıq gərirər.

### Əgər bir insan əmin olsa ki, nəfsani danışmır...

Əgər bir insan əmin olsa ki, danışdığı nəfsani deyil - o halda danışması sükutdan daha üstündür. Təkamül üçün insan əmin olmalıdır ki, nəfsani iş görmür. Bunun üçün ilk növbədə sükutu öyrənməlidir. Artıq özünü tərbiyə edəndən sonra, ancaq Allah razı olduğu halda danışdığına əmin olduqdan sonra, o danışmanın sükutdan üstünlüyü var.

İmam Səccad (ə) da, ondan bu barədə soruşulduğundan, bəyan edir ki, həm danışmanın və həm də sükutun özünəməxsus çatışmazlıqları, naqislikləri ola bilər. Lakin, hər ikisi bu naqislik və çatışmazlıqlardan pak olsa, danışmaq sükutdan daha üstündür. Eyni zamanda İmam (ə) bəyan edir ki, Allah Təala peyğəmbərləri (s) və onların vəsilərini sükutla məbus etməyib. Əslində onları danışmaq üçün məbus edib.

Amma onlar nə danışıblar? Onlar yalnız haqqı, həqiqəti deyiblər. Onlar nəfsdən irəli gələrək danışmayıblar. Onlar məbus olublar ki, insanlara haqqı çatdırsınlar.

Həzrət İmam Səccad (ə) həm də çatdırır ki, Cənnət sükutla əldə edilmir. Görürük ki, bu, eyni zamanda yalançı tərki-dünyalığı darmadağın edən hədisdir. Yəni, insan danışmalı olan yerdə, haqqı deməli yerdə sükut etsə - əksinə, xəyanət etmiş olur. Sükut - məqsəd deyil, ünvan deyil, hədəf deyil. Sükut - hikmət əldə etmək üçün bir vasitədir.

Sonda isə əziz İmam (ə) xatırladır ki, Allahın məhəbbəti və vilayəti sükutla əldə edilmir. Sükutla cəhənnəm atəşindən xilas olmaq olmur. Sükutla İlahi qəzəbdən qurtulmaq, amanda qalmaq olmur. Əslində bunlar hamısı danışmaqla əldə edilir. İnsan, Allah bəndəsinin üzərinə düşən danışmanı danışmalıdır. Doğru yola dəvət etmə, pis yoldan çəkindirmə - insanın üzərində olan, dinimizin vacib etdiyi məsələlərindəndir.

Bəzən olur ki, insan danışmalı olduğu bu yerlərdə təhrif edərək, özünü və digərləri aldadaraq deyir ki, dinimiz sükuta səsləyir. Bu, həmin yerlərə aid deyil. Yerində danışmaq - insan üçün vacibdir. Amma, insan Allah bəyənəni deməyəcəksə, gərək heç olmasa sussun. Həm nəfsani danışmaq insan üçün bir qəbahət, eyibdir, həm də nəfsə tabe olaraq, danışmağın vacib olduğu yerdə susmaq - eyibdir. Allah Təala bizi hər iki eyibdən uzaq etsin!

**Allah nəsib etsin ki, danışmağımızda da, susmağımızda da Onun razılığını axtaraq.**

**Allahım, bizlərə nəfsani danışmaqdan qurtulmağı, iradəvi sükutu öyrənməyi nəsib et!**

**Allahım, bizə Sənin razılığına uyğun yaşamağı nəsib et!**

**Allahım, bizlərə xeyirli aqibət nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 65 (7235) 29 mart 2019

# Toyuq hininə girən tülkü ev sahibini öldürüb



Türkiyənin Dənizli şəhərində dəhşətli hadisə baş verib. 42 yaşlı Hüseyn Eşkol adlı kişi toyuq hininə dadanan tülküdən qurtulmaq istəsə də, nəticədə həyatını itirib. Belə ki, toyuq hininə girən tülkünü öncə ağacla, sonra daşla vuraraq ordan çıxarmaq istəyən kişi buna nail ola bilməyib. Əvəzində tülkü hirslənərək, ona hücum edib və ölümcül şəkildə yaralayıb. H.Eşkol dərhal xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Tülkünün vurduğu yara izləri olduqca dərin olub. Alimlər isə bildirir ki, şikar üstündə olan yırtıcı heyvanlara hücum etmək əksər hallarda ölümlə nəticələnir. Çünki həmin vaxt onlar hər zamankından daha qəddar və aqressiv olurlar.



## Pişiyi bağlamaya qoydular və 420 kilometr yol getdi

Britaniyada Kapkeyk ləqəbli siam pişiyinin başına qəribə hadisə gəlib. Belə ki, heyvanı səhvən poçt bağlaması ilə göndəriblər. Bu barədə lenta.ru saytı Buzz Feed Nevs-a istinadən xəbər verib. Xəbərə görə, pişik bağlamada 420 kilometrlik məsafəni "qət edib". Bağlama özünə disk sifariş verən gəncə gəlib. Bağlamanı açan gənc onun içindəki DVD-lərlə yanaşı, pişik də görərək şoka girib. Kişi pişiyi heyvanların müdafiəsi ilə məşğul olan quruma təhvil verib. Tibbi müayinədən sonra məlum olub ki, bağlamanın içində 420 kilometrlik yolu gedən pişiyin səhhətində hər şey qaydasındadır. Amma havasızlıqda qaldığı üçün halsızlaşıb. Pişiyin üzərindəki mikroçip sayəsində isə onun sahibinin kimliyi müəyyənləşib. Pişiyin sahibəsi Ciloa Beqqot isə deyib ki, o diskləri bağlamanın içinə qoyanda pişiyin onun içinə girdiyini görməyib. Nəticədə isə günlərlə öz pişiyini axtarıb və onun oğurlanmasından şübhələnib. Britaniyalı qadın eyni zamanda bildirib ki, pişiyi Kapkeykin geri dönüşünü möcüzə sayır.

# Qadın günəş vannası qəbul edirsə...

İsveçdəki Karolinska Universiteti Xəstəxanası və Lund Universiteti tərəfindən həyata keçirilən bir araşdırma nəticəsində məlum olub ki, tez-tez günəş vannası qəbul edən qadınlar bundan imtina edən həmcinslərindən 2.1 il daha çox yaşayırlar. 20 il boyunca 29 min 518 nəfər qadın üzərində aparılan araşdırma nəticəsində məlum olub ki, günəş vannası ürək və xərçəng xəstəlikləri çıxmaq şərtilə, digər xəstəliklərə yoluxma riskini azaldır. Araşdırmaya rəhbərlik edən doktor Pelle Lindqvist bildirib ki, günəşdən qaçmaq insanın həyatına siqaret qədər böyük və mənfi təsir göstərir. Günəş altında uzanmaq dəri xəstəlikləri riskini azaltsa da, ultrabənövşəyi şüalara məruz qalmaq dəri xərçənginə səbəb olur. İngiltərənin "Independent" qəzetinin xəbərinə görə, mütəxəssislər günəşə çıxmazdan 30 dəqiqə öncə günəş kremi sürtülməsini məsləhət görürlər. Bundan başqa, günorta saat 11:00 ilə 03:00 arasında güclü günəş şüalarına çıxmamağı məsləhət görürlər.





## Marixuna çəkənlərin xərçəng riski böyükdür

Marixuana əsrimizin bəlası olan xərçəng xəstəliyini sürətləndirən faktordur. Bunu ABŞ Kaliforiya universitetindən olan mütəxəssislər "Cancer" jurnalında yazıblar. Belə ki, onlar marixuana çəkməklə müalicəyə tabe olmayan yumurtalıq xərçəngi arasında sıx əlaqənin olduğunu müşahidə ediblər. Kanserogen effekt nəinki davam lı istifadə zamanı həmçinin maraq naminə bir və ya bir neçə dəfə dadına baxarkən də formalaşır.15-45 yaş arası əhali arasında daha intensiv şəkildə yayılan xəstəlik nəticə etibarilə müalicəyə çətin tabe olan və ümumiyyətlə olmayan şəkildə keçirilir və pis mühitin nəticəsidir.192 xəstə və 292 sağlam xəstəni sorğudan keçirən mütəxəssislər belə nəticəyə gəlmişlər ki,marixuanadan istifadə prosesi iki dəfəyə qədər sürətləndirir.

## Qoroskop (29 mart)




QOÇ - İqlimin mülayimliyi ümumi ovqatınıza müsbət təsir edəcək ki, bu da əlinizdə olan işlərin daha sürətli həllinə xidmət edəcək. Bu gün kənar təsirlərə, dedi-qoduya əhəmiyyət verməməli, səfərə çıxmamalısınız.

BUĞA - Gərgin iş qrafikinə dözümsüzlüyünüz bir az problem yarada bilər. Yalnız böyük ideyalarınız barədə düşünün. Ətrafınızdakılar tərəfindən sevilməyə çalışın. Aldığınız təkliflərə isə razılıq verməyə tələsməyin.

ƏKİZLƏR - Ev-mənzil təmirinə başlamaq üçün yaxşı vaxtdır. Yalnız saat 11-13 arası xırda mübahisələriniz mümkündür ki, bunu da özünüz yaratmamalısınız. Astroloji göstəricilər səhhətinizə fikir verməyi məsləhət görür.

XƏRÇƏNG - Kollektiv müəssisədə fəaliyyət göstərdiyiniz təqdirdə müvəffəqiyyət qazanmağı bacaracaqsınız. Hətta namizədsinizsə, vəzifə irəliləyişləri də mümkündür. Axşama doğru çoxdan əlaqə saxlamadığınız doğmalarınızdan xəbər tutun.

ŞİR - Təcrübəli adamlarla məsləhətləşin, həyat təcrübənizdən yararlanın. Probleminizin həllini məmurlardan deyil, Tanrıdan istəyin. Axşam saatlarını daha çox evdə keçirməyə çalışın - oturaq işlər məsləhətdir.

QIZ - Qəlbinizin sevgi guşəsini boş saxlamayın. Çünki bu ərəfədə enerjinizi məhz məhəbbətdən almalısınız. Könül rahatlığınız təmin olunduğu halda, qalan məsələlərdə hər şey qaydasında olacaq. Riskli səfərə çıxmayın.

TƏRƏZİ - Qısqanclıq, dedi-qodu, iki münaqişəli adamı barışdırmaq cəhdi sizi gözdən sala bilər. Odur ki, istənilən prosesdə loyallığınızı qorumağı bacarmalısınız. Kreditlə bağlı bütün işləri təxirə salın.

ƏQRƏB - Göy qübbəsi düşünülməmiş addım atmağınızın əleyhinədir. Çətinliyiniz olduğu təqdirdə mütləq inandığınız adamlardan məsləhət alın. Bu gün saat 16-dan sonra çox əziyyətlərinizin bəhrəsini görəcəksiniz.

OXATAN - Günün ümumi mistik gərginliyinə baxmayaraq, nahardan etibarən uğurlar sizi qoynuna alacaq. Rastlaşdığınız hadisə və insanlar ümumi əhvalınıza yüksək təsir edəcək. Pulsuzluqdansa məyus olmayın.

OĞLAQ - Uzaq səfərləri və spirtli içki qəbul etməyi təxirə salsanız, gün ərzində hər hansı xoşagəlməzliyin şahidi olmayacaqsınız. Sənədlərlə bağlı bütün işlərinizi sürətləndirin. Astroloji göstəricilər gecəni evdə keçirməyi tövsiyə edir.

SUTÖKƏN - Daxili sabitliyinizi qorumaqla situasiyalarda fəallaşmağı bacaracaqsınız. Bu gün həm də bir neçə sınaqdan keçəcəyiniz gözlənilir. Günün ikinci yarısı büdcənizi artırmaq imkanınız olacaq.

BALIQLAR - Bütün gücünüzü fəaliyyət istiqamətinə yönəldin. Gün ərzində başladığınız heç bir işi yarımçıq buraxmayın. Pulla bağlı layihələrdə təkbaşına qərar verməyin, mütləq təcrübəli insanların köməyindən yararlanın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İnsan qorxanda arıqlayır



Alimlər müəyyənləşdiriblər ki, 2 ilə 130 kiloqram arıqlamaq mümkün imiş. Özü də qorxu nəticəsində. Həkimlər boyu 162, çəkisi təxminən 200 kiloqram olan qadını müayinə edərək onun ömrünün sonuna maksimum 2 il qaldığını bəyan edib, yaşamaq üçün onun təcili arıqlamalı olduğunu bildirib. Bundan qorxuya düşən qadın sağlam qidalanmaya keçib, eyni zamanda hər gün hovuzda üzüb. Nəticədə 2 ildə 130 kiloqram arıqlayan amerikalı "2011-ci ilin arıqlaması" tituluna sahib çıxıb. Bir qorxunu bir dəfə yaşamaq olar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755